**Əhli-beyt və səhabələr birliyi**

**Üçüncü silsilə: İslami maariflənmə məsələləri (10)**

# Həqiqi İslam birliyi naminə
# NAMAZIN VAXTLARI

**Doktor Taha Hamid əd-Duleymi**

**Təhqiq edib yoxladı:**

"əl-Məbərra" müəssisəsinin nəzdində olan

tədqiqatlar və araşdırmalar mərkəzi

# MÜNDƏRİCAT

Müqəddimə ........................................................................................ 5
Risalə ilə bağlı suallar ........................................................................ 7

**Birinci fəsil: "əl-İsra" surəsinin bir ayəsi** ...................................... 11
Başlanğıc nöqtəsi: Əsas mənbə Qurandır ................................ 11
Muhkəm və mütəşabih ayələr .................................................... 12
əl-İsra ayəsindəki mütəşabihlik.................................................. 13
Ayə ədədi deyil, vaxtı təyin etmişdir ......................................... 15
Moizə .............................................................................................. 18
Ayə namazın cəm olunmasına deyil, ayrıca qılınmasına dəlildir .......................................................................................... 20
Quranı ən yaxşı təfsir edən Rəsulullahdır ﷺ ........................... 21
Peyğəmbər ﷺ beş ayrı vaxtda namaz qılardı............................ 22
Ayrı qılınmanın daha əfzəl olması yekdilliklə qəbul olunur ...... 23
Mübah əməl harama gətirib çıxarırsa, haramdır ..................... 23

**İkinci fəsil: Qurani-Kərimdə beş vaxt namaz ................................. 25**
Quranda namaza verilən adlar .................................................. 28
Əsr namazının vaxtı...................................................................... 30
Sübh, zöhr, əsr, məğrib və işa namazları ....................................31
Əsr namazı fəcr namazı ilə birlikdə qeyd olunur ................... 33
"Gün batmamışdan öncə" ...........................................................34
Əsr namazı ilə fəcr namazlarının adları andla xüsusiləşdirilmişdir ................................................................................ 35
*"əl-Əşiy"*, yəni əsr vaxtı ............................................................... 36

Uca Allah peyğəmbərlərə sübh və əsr namazını qılmağı buyurmuşdur ............ 37
Quran, *“əl-əşiy”* deyildikdə, hansı vaxtın nəzərdə tutulduğunu açıqlayır ............ 38
İşa namazının vaxtı ............ 39
İzn ayəsi ............ 41
Gecənin bəzi saatlarında ............ 42

**Üçüncü fəsil: Rəsulullahın ﷺ qoyduğu vaxtlar ............ 44**
Möminlərin əmiri Əli ibn Əbu Talibə görə namaz vaxtları ............ 47
Peyğəmbərin ﷺ namazları birləşdirməsinin səbəbi ............ 50

**Dördüncü fəsil: Peyğəmbərimizin ﷺ əhli-beytindən bizim mənbələrdə varid olanlar ............ 52**
İmamlara görə məğribi gecikdirmənin hökmü ............ 60
Üzrlü səbəblərdən namazları birləşdirmək ............ 60
Əhli-sünnə mənbələrində namazların cəm olunması ............ 63
İbn Abbasın hədisinə cavab ............ 65
Formaca cəm etmək ............ 67
Vaxtlarla bağlı ittifaq edilmiş Cəbrayıl hədisi ............ 72
Peyğəmbərdən ﷺ nəql olunmuş bəzi hədislər ............ 73
Başlanğıca dönüş ............ 74

# MÜQƏDDİMƏ

Həmd Allaha məxsusdur və bu kifayət edir, Peyğəmbərimiz Mustafaya və Allahın seçilmiş qullarına salavat və salam olsun.

Məlum olduğu kimi, dinin mütləq şəkildə ən əzəmətli əməli, rüknü namazdır. Namazı icra edən, dinə riayət etmiş olar, namazını qılmayan isə, dinini də bərbad etmiş olar. Çünki namaz, Peyğəmbərimiz Muhəmmədin ﷺ dediyi kimi, dinin dirəyidir. Uca Allah namazları qorumağı əmr edərək buyurur: **"Namazları və (*günortadan sonrakı*) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun."**[1] Allahın Rəsulu ﷺ da bunu əmr etmişdir.

Namazları vaxtlı-vaxtında qılmaq onu qorumaq hesab olunur. Bunun üçün də namazların vaxtını bilmək gərəkdir.

Bu müxtəsər və yığcam elmi risalə Allahın Kitabında və Peyğəmbərinin ﷺ sünnəsində gündəlik beş vaxt namazların qılınması vaxtları barəsindədir.

Risaləni qələmə alarkən həm sünni, həm də şiə mənbələrindən bərabər istifadə etmişəm ki, bir çox buna bənzər əzəmətli işlərdə bu mənbələrə etimad göstərməyin mümkünlüyünü isbat edim.

---

[1] "əl-Bəqərə" surəsi, 238.

Hətta risaləyə Seyyid Muhəmməd İskəndər əl-Yasiri ən-Nəcəfinin də əsərindən bir bəhs əlavə etmişəm. Həmin bəhsi o, əhli-beyt imamlarına etimad göstərərək şiə mənbələrinə əsasən yazmışdır ki, bununla da hər kəs bu əzəmətli iş haqqında – namaz barədə aydınlığa çatmış olsun.

Tək olan Allahdan diləyirəm ki, qəlblərimizi haqq üzərində birləşdirsin və bizi ona çatmağa asanlaşdırsın. Şübhəsiz ki, O, Eşidəndir, Yaxındır.

***Müəllif***

# RİSALƏ İLƏ BAĞLI SUALLAR

Mən elə bir cəmiyyətdə böyüyüb boya-başa çatmışam ki, oranın bəzi məscidlərində üç dəfə, digərlərində isə beş dəfə azan verilirdi. Bu ixtilaf məni çox narahat edirdi və nəhayət öz-özümə bir sıra suallar verməyə başladım:

*– Məgər namazlar beş deyilmi?*

*– Məgər hər bir namaz öz vaxtının adı ilə adlandırılmayıbmı?*

*– Məgər Quran nazil olarkən bu vaxtlar bəlli və müəyyən olunmuş digərlərindən fərqli vaxtda deyildimi? Yoxsa öz dillərində Quran nazil olunmuş ərəblər bu adları vaxtlara görə vermiş, lakin vaxtlarını təyin etməmişdilər? Məgər onlardan bəzilərinin vaxtları digərlərinə daxildir?*

*– Əgər namazların vaxtı məlum və fərqli deyildisə, bəs nə üçün onların adları fərqlidir? Ələlxüsus da azan və namaz böyük insan kütləsi qarşısında həyata keçirilən zahiri bir şüardır. Bu məsələdə bizim ixtilafda olmağımız, sözsüz ki, parçalanmaya səbəb olacaqdır. Məgər beş vaxt namazı ayrı-ayrı vaxtlarda qılan şəxsin namazları səhih deyildirmi?*

**Cavab:** Təbii ki, onun qıldığı namazlar yekdilliklə səhihdir. Bundan belə bir nəticə çıxarmaq olar ki, namazları cəm etmək heç də şərt deyildir.

*– Beləliklə, ağıl və şəriət baxımından ən vacib məsələlərdən olan birlik və vəhdəti pozmamaq üçün mübah və icazəli olan bir məsələyə əməl etməyimiz səhv sayıla bilərmi?!*

*– Caiz hökmündə olan bir məsələnin müqabilində cəmiyyətdə ən təhlükəli və şəriət baxımından haram hesab olunan məsələyə – təfriqəyə varmaq nə dərəcədə düzgündür?!*

Namazı üç vaxtda qılmaqla kifayətlənmək ən azından müsəlmanı bu əzəmətli əməli doğru icra edib-etməməsi şübhəsinə salır. Həmin şübhələr fərqli səviyyədə ola bilər. Beş vaxt namazı vaxtlı-vaxtında qılmaq isə, bu şübhələri dəf etmiş olur və insanların nəfsində rahatlığa səbəb olur.

Daha sonra öz-özümə başqa suallar da verdim:

*– Görəsən Peyğəmbər gün ərzində neçə dəfə namaz qılardı?*

*– Görəsən Peyğəmbərin məscidində neçə dəfə azan səsi ucalardı?*

*– Görəsən Möminlərin əmiri Əli ibn Əbu Talib* عليه السلام *neçə dəfə namazı qılardı və onun Kufədəki məscidində, habelə onun və ondan əvvəlki raşidi xəlifələrin rəhbərlik etdiyi ucsuz-bucaqsız dövlətin məscidlərində neçə dəfə azan verilərdi?*

Hər zaman da eyni cavabla qarşılaşırdıq: – onlar beş ayrı vaxtda namaz qılar və azan verərdilər. Bununla belə, onlar xəstəlik, səfər və döyüş kimi bəzi hallarda üç vaxt da namaz qılardılar.

Soruşmaq istəyirəm ki, *bu, məscidlərimizdə davamlı şəkildə, heç bir üzür olmadan beş vaxt əvəzinə üç vaxt namaz qılmağımıza əsas ola bilərmi? Axı nə məscidlər yerini dəyişib, nə də ki səfərə çıxıb, məscid ətrafında olanlar da oranın daimi əhlidirlər və döyüşdə deyillər. Belə olduğu halda, nə Rəsulullahın* ﷺ*, nə də Əlinin* عليه السلام *etmədiyi bir əməli necə edə bilərik?!!*

Buna cavab olaraq mənə Uca Allahın aşağıdakı ayəsini eşitdirirlər: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *(bəlli vaxtlarda)* namaz qıl və sübh çağı Quran oxu (*fəcr namazını da qıl*)! Çünki, sübh çağı oxunan Quranın şahidləri olur."**[2] Dəlil gətirilən bu ayədə namazın yalnız üç vaxtı qeyd olunur: gün batmağa meyl edən vaxt, gecənin qaranlığı və sübh vaxtı. Deməli namazların vaxtı üçdür.

Lakin biz, Allahın əmrlərini ən gözəl şəkildə anlayıb onlara əməl edən Peyğəmbərin ﷺ etdiklərinə nəzər salsaq görərik ki, onun etdiyi belə təfsirlə uzlaşmır. Əgər ayədə namazın yalnız üç vaxtda qılınması buyurulsaydı, o zaman Peyğəmbər ﷺ onun beş vaxt qılınmasını əmr etməzdi. Axı o, bağışlayan, asanlaşdıran, mülayim və əziyyətsiz olan hənifilik dini ilə göndərilmişdi. Peyğəmbər ﷺ də bu mənalara (?) həris idi.

Şübhəsiz ki, Peyğəmbərin ﷺ etdiyi Quranın məqsədlərinin təfsir və açıqlanmasında əsas hüccət hesab olunur. Uca Allah buyurur: **"*Biz onları* aydın dəlillər və kitablarla *göndərdik*. Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr."**[3]

Demək, Peyğəmbərin ﷺ etdikləri Quranın məqsədinin bəyanıdır. Bizə isə ona tabe olmaq əmr olunmuşdur. Uca Allah buyurur: **"De: – Əgər siz Allahı sevirsinizsə, mənim ardımca**

---

[2] "əl-İsra" surəsi, 78.

[3] "ən-Nəhl" surəsi, 44.

**gəlin ki, Allah da, sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayandır, rəhmlidir."[4]**

Həmçinin Peyğəmbər ﷺ bizlərə belə əmr etmişdir: "Mən necə namaz qılıramsa, siz də elə qılın."[5] Uca Allahın buyurduğu bir əmri Onun elçisi nə cür icra edibsə, həmin forma o əmrin təfsiri və bəyanı sayılır.

Allahın ayədə yalnız üç vaxt namaz qılınmasını əmr etdiyi halda Onun Elçisinin ﷺ namazın beş vaxt olduğunu təfsir etməsi mümkünsüzdür.

Nəhayət, İzzət və Cəlal sahibi olan Allah mənə Öz fəziləti ilə hidayət verərək qəlbimi rahatladı və köksümə şəfa verdi. Bu da Quran vasitəsilə baş vermişdi. Belə ki, mən Qurani-Kərimdə bir sıra ayələrə rast gəldim ki, həmin ayələrdə də namazların vaxtları bəyan olunurdu. Həmin ayələrlə tanış olan hər kəs anlamış olur ki, namazın vaxtları təkcə bir ayədə açıqlanmamışdır. Həmd Allaha məxsusdur.

---

[4] "Ali İmran" surəsi, 31.

[5] Hədisi Buxari rəvayət etmişdir. "Azan" kitabı, "Müsafirin azan verməsi" babı, 605 saylı hədis. Həmçinin hədisi İbn Əbu Cumhur əl-İhsai "Avalil-ləali" əsərində rəvayət etmişdir (1/198).

## BİRİNCİ FƏSİL

### "əl-İsra" surəsinin bir ayəsi

**"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *(bəlli vaxtlarda)* namaz qıl və sübh çağı Quran oxu *(fəcr namazını da qıl)*! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."**[6]

**Başlanğıc nöqtəsi. Əsas mənbə Qurandır**

Hər bir müsəlman mənimlə razılaşar ki, Qurani-Kərim istənilən mübahisədə haqla batili ayırd edən qəti kəlamdır. Qurana müxalif olan hər bir şey isə rədd olunur.

Əvvəlcə yolun əvvəlindən Qurani-Kərimə qayıdaq və özümüzü ixtilaf və mübahisədən qurtaraq.

Qurani-Kərim bir çox ayələrdə namazın vaxtları xüsusunda öz sözünü deməkdədir. Bizlərə vacibdir ki, bu ayələrin hamısına birlikdə nəzər salaq və onları bir-biri ilə əlaqələndirək ki, buna da üsul elmində ***dəlillərin bir yerə toplanması*** deyilir. Yalnız bundan sonra məqsəd bizlərə aydın olacaq. Lakin bir çoxları bu qaydadan bixəbərdir. Çoxları namazın vaxtları ilə bağlı çoxsaylı ayələr arasından yalnız bir ayə ilə kifayətlənərək ona əsas mənasından fərqli təfsirlər verirlər.

---

[6] "əl-İsra" surəsi, 78.

Bununla da həmin ayə fərqli yerlərdəki digərləri ilə ziddiyyət təşkil edir. Dərin biliyi olmayan və ya Quranı oxumaq imkanı tapmamış kəs də bunu eşidərək qəbul edir, digər ayələri isə tərk etmiş olur. Ədalətli elmi üsluba əsasən isə, müəyyən bir mövzu ilə bağlı müxtəlif dəlillərin bir araya toplanması gərəkir. Əks təqdirdə, məramdan uzaqlaşarıq.

### Muhkəm və mütəşabih ayələr

Uca Allah buyurur: **"Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi muhkəm ayələrdir ki, bunlar da, Kitabın anasıdır."**[7] **–** yəni ixtilaf zamanı ayəyə ehtimal və anlaşılmazlıq daxil ola bilmir.

**"... digərləri isə mütəşabih *ayələrdir*."** Yəni həmin ayələr bir neçə cür anlaşıla bilir və açıqlamasında müxtəlif ehtimallar vardır.

Mutəşabih ayələr bir neçə yöndən açıqlana bildiyi üçün hansı açıqlamanın qəsd olunduğunu bildirən möhkəm dəlilə müraciət olunmadan həmin variantlardan birisi ilə təfsir oluna bilməz. Əks təqdirdə, bunu edən kəs Uca Allahın: **"Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə, mutəşabih ayələrin ardınca gedərlər."**[8] **–** ayəsi şamil olunar. Hər kim muhkəm olana baxmadan mutəşabih ayəyə tabe olaraq ona əsaslanarsa, zəlalət əhlindən

---

[7] "Ali İmran" surəsi, 7.

[8] "Ali İmran" surəsi, 7.

sayılar. Çünki mütəşabih ayə muhkəm olmadan insanı öz məqsədinə yəqinliklə çatdıra bilməz. Məhz buna görə də mutəşabih ayələrdən sonra Uca Allah: **"Halbuki onun yozumunu Allahdan başqa heç kəs bilməz."**[9] Muhkəm ayələrə nəzər salmaqla mutəşabih ayələri anlamağa çalışan kəsə gəldikdə isə, o, ayədə qeyd olunan dərin biliyə malik şəxslərdəndir. Uca Allah buyurur: **"Dərin biliyə malik olanlar isə deyərlər: – Biz ona iman gətirdik, hamısı Rəbbimiz tərəfindəndir". Ağıl sahiblərindən başqa heç kəs *bunu* dərk edə bilməz."**[10] Zəlalət əhli isə bunun əksini edir – muhkəm ayələrdən yan keçərək onları gizləməyə çalışır, onların əleyhinə olduğu üçün onlara əsaslanmırlar. Onların dəlilləri müxtəlif ehtimallarla bol olan mutəşabih ayələrdə olur və onlar həmin ayələri öz istəklərinə uyğun açıqlayırlar. Beləcə biz onların həmin ayələri te-tez söylədiklərinin şahidi oluruq.

**Bunun təfsilatına başqa bir məqamda varacağıq. İndi isə ayənin təfsirinə qayıdaq.**

### "əl-İsra" surəsindəki məlum ayədə mutəşabihlik

Ayədəki mutəşabihlik *"ilə"* söz önündədir. Belə ki, təfsirçilər həmin söz önünü *«vav»* bağlayıcısı kimi açıqlamışlar. Baxmayaraq ki, həm ləfz, həm də məna baxımından aralarında kəskin fərq vardır.

---

[9] "Ali İmran" surəsi, 7.

[10] "Ali İmran" surəsi, 7.

Məlumdur ki, *"ilə"* yön və istiqamət bildirir. Misal üçün deyirsən ki, mən ayın birinci günündən otuzuncu gününədək idarədə işləmişəm. Buradakı *"ilə"* kəlməsi açıqlayır ki, sən təkcə iki gün deyil, onların arasındakı digər günləri də işləmisən.

Lakin desən ki, mən birinci və otuzuncu günü işləmişəm, o zaman *"ilə"* kəlməsini *«vav»* bağlayıcısı ilə əvəz etmiş olursan ki, bu da mənanı tamamilə dəyişmiş olur. Bununla da işlənilmiş günlər yalnız birinci və otuzuncu günlər olur. Halbuki, birinci misalda işlənmiş günlər ikidən daha artıq idi. Sadəcə həmin günlərin sayı cümlədə bildirilməmişdi. Həmin cümlədə təkcə işin başlandığı və bitirildiyi vaxt açıqlanır. Birinci günlə otuzuncu gün arasında neçə gün işləndiyini bilmək üçün isə gərək həmin idarənin iş sxeminə nəzər salasan və biləsən ki, işçi neçə gün işləməli, neçə gün isə istirahət etməlidir. Əgər iş bir gündən birdirsə, o zaman iş günlərinin sayı on beş olacaqdır. Yox, əgər iş cümə günü istisna olmaqla gündəlikdirsə, o zaman günlərin sayı iyirmi altı olacaqdır və bu qaydada.

Yaxud deyirsən ki, "Məktəbdə dərslər səhər saat səkkizdə başlayır və günorta saat birdə bitir". Bu cümlədə saat səkkiz ilə bir arasında neçə dərsin olduğu açıqlanmır. Burada sadəcə dərs vaxtının başlanğıcı və sonu bildirilir. Dərslərin sayına gəldikdə isə, onu bilmək üçün ayrı bir dəlilə ehtiyac vardır.

Bunu yadda saxla, daha sonra ayəni həmin misalların işığında bir daha mütaliə et. Diqqət et ki, ayənin tərkibində *"ilə"* kəlməsi deyil, *«vav»* bağlayıcısı vardır. Uca Allah buyurur: "**Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl."**[11]

Ayədə *"və gecənin qaranlığında"* deyilmir. Bu iki ifadə arasındakı fərq odur ki, sən misal üçün belə deyirsən: "Birinci və otuzuncu gün işə getdim", yaxud "Birinci gündən otuzuncu günədək işə getdim." Əgər Uca Allah buyursaydı ki, *"Gün batmağa meyl edəndə və gecənin qaranlığında namaz qıl",* o zaman burada yalnız iki vaxt nəzərdə tutulardı ki, onlar da gün batmağa meyl edən vaxt və gecə vaxtıdır. Lakin İzzət və Cəlal Sahibi olan Allah: "... **gecənin qaranlığınadək..."** – deyə buyurur. Yəni namazlar gün batmağa meyl edən vaxtdan ta gecəyədək, yəni işa namazınadək davam edir. Gün batmağa meyl edən vaxtdan gecəyədək olan zaman çərçivəsində isə digər dəlillərdən öyrəndiyimizə əsasən, İslamda buyurulan dörd vaxt namaz vardır.

### Ayədə vaxt göstərilir, ancaq say bildirilmir

Ayənin ləfzi tərkibi namaz vaxtlarının sayını deyil, ümumi vaxtları göstərir. Gün batmağa meyl edəndən gecənin qaranlığınadək dörd vaxt namazın olması Uca Allahın Kitabındakı və Elçisinin Sünnəsindəki digər dəlillər vasitəsilə

---

[11] "əl-İsra" surəsi, 78.

bəlli olur. Fərz etsək ki, bu dəlillər namazların sayının az və ya çox olmasını təyin etmiş olsaydı, ayə ümumi və bütün ehtimallara şamil oluna bilərdi.

Ayədən, misal üçün belə bir ehtimal da yaranır ki, əgər şəri dəlillərdə göstərilsəydi, namazın vaxtı bu iki vaxt arasında hər saatdan bir, yaxud da iki saatdan bir olardı. Ayənin: "**Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl.**"[12] – ləfzi hər iki mənaya müşkülsüz şamil oluna bilər. Lakin şəriət dəlilləri bu iki vaxt arasında dörd namazın olduğuna dəlalət etdiyi üçün biz də bunu dedik. Həmin say çox və ya az olsaydı, biz də həmin sözü deyərdik. Yuxarıdakı ayə hər bir halda bizim üçün faydalıdır.

Bircə qalır sonuncu beşinci vaxt, o da ki, bəllidir: **"və sübh çağı Quran oxu** (*fəcr namazını da qıl*)**! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."**[13]

Bu arada diqqət verilməsi gərəkən bir məsələ də vardır ki, o da ayədə *"ilə"* (a-ə) şəkilçisinin deyil, *«vav»* bağlayıcısının işlənmişdir.

Bəs bu iki yerdəki ifadələr nə üçün fərqlidir?

*«vav»* bağlayıcısının işlənməsi onu göstərir ki, barəsində danışılan vaxt birdir. Yəni gecə vaxtından sübhədək heç bir fərz namazı yoxdur. Əgər ayədə (Sübh namazına qədər) *"ilə"* ədatı işlənmiş olsaydı, o zaman gecədən sübhədək fərz

---

[12] "əl-İsra" surəsi, 78.

[13] "əl-İsra" surəsi, 78.

namazının mövcudluğu anlaşılardı. Lakin bu iki zaman kəsiyi arasında heç bir fərz namazı olmadığı üçün ayədə «vav» bağlayıcısından istifadə olunmuşdur: **"və sübh çağı Quran oxu (*fəcr namazını da qıl)*!"** (sübhədək Quran oxu və ya namaz qıl) – deyə buyurulmamışdır. Beləliklə, aydın olur ki, sadəcə bir namaz, yəni sübh namazı qalmışdır.

Buradakı sirr də bundan ibarətdir ki, birinci məqamda "ilə" (a-ə) şəkilçilərindən istifadə olunsa da, ikinci məqamda «vav» bağlayıcısından istifadə olunmuşdur.

Beləliklə ayələrdə namazların sayı deyil, vaxtları bəyan olunur. Namazların sayı ilə vaxtları arasındakı fərq isə aydındır. Diqqətli olun!!

İmamilərin etibarlı mənbələrində də bu mənanı təsdiqləyən dəlillər vardır. əl-Qummi Əbu Cəfərdən rəvayət edərək demişdir: "Gün batmağa meyl edəndən gecənin qaranlığınadək dörd namaz vardır ki, Allah onların adlarını çəkmiş, vaxtlarını da bəyan etmişdir. **"Gecənin qaranlığınadək" –** deyildikdə, gecəyarısı nəzərdə tutulur. Sonra Uca Allah buyurur: **"və sübh çağı Quran oxu (*fəcr namazını da qıl)*! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."**[14] Bu da beşinci namaz. Həmçinin buyurur: **"Gündüzün iki başında** *(əvvəlində və axırında)* **və gecənin bəzi saatlarında namaz qıl!"**[15] Burada gündüzün iki başı deyildikdə, məğrib və zöhr

[14] "əl-İsra" surəsi, 78.

[15] "Hud" surəsi, 114.

namazları nəzərdə tutulur. Gecənin bəzi saatlarında qılınan namaz isə İşa namazıdır.[16]

Beləliklə, kim bu ayənin namazların sayına dəlil olduğunu iddia edərək namazların sayının üç olduğunu bildirərsə, mütəşabih məsələyə vararaq xəta etmiş olar. Beləsinə məsələnin həm şübhəli, həm də həqiqi tərəfi bəyan edilməlidir. Əgər bundan sonra da öz mövqeyində israr etmiş olarsa, o zaman mütəşabihlik əhlindən olar. Bunlar azğınlığa düçar olmuş bir toplumdur. Allah bizləri və sizləri onlardan qorusun. Uca Allah buyurur: **"Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən."**[17]

## Moizə

Ey müsəlman qardaş!

Ey Rəbbinin məqamından qorxan, Onun önündə duraraq hesab verməkdən qorxub titrəyən kəs!

Bilirsənmi ki, sən Allahın qarşısında iki dəfə dayanırsan? Onlardan biri bu dünyada, ikincisi isə axirətdədir. Bilirsənmi ki, ikinci duruş zamanı sabitliyini birinci duruşun müəyyən edir?

---

16 "əl-Kafi", 3/271; "Mən lə yəhduruhul-fəqih", 1/196.

17 "Ali İmran" surəsi, 8.

Birinci dayanış namaz zamanı Rəbbinin önündə durmağındır. İkinci dayanışın isə Qiyamət günü Allahın önündə hesab vermək üçün dayanmağındır!

Rəbbindən qorxaraq dininə həris olan müsəlman üçün naməlum bir gələcək müəyyən edən ən əzəmətli əməli zənn və ehtimallara, dedi-qoduya əsaslanaraq icra etməsi dini və əqli baxımdan nə dərəcədə doğrudur?! Daha yaxşı olmazmı ki, bu işini aydın əsaslara söykənərək icra etsin, dininin mahiyyətini möhkəm və aydın dəlillərə əsaslanaraq öyrənsin? Çünki bu işin sonu ya Cənnətdir, ya da ki Cəhənnəm. Qiyməti isə insanın canıdır. Ağıllı olan kəs özünü necə təhlükəyə ata bilər? Dini ilə necə qumar oynaya bilər?

Elə isə bu risk nəyə lazımdır? Bu qumar kimin mənafeyinə xidmət edir? Axı zəmanətli qazanc vasitələri asan və məlumdur!

Müsəlman olan kəs hər bir namazı öz vaxtında qılarsa, mövqeyindən asılı olmayaraq heç bir müsəlman ona etiraz edə bilməz və deyə bilməz ki, sənin namazın batildir və ya şəriətə müxalifdir. Əksinə, o, qıldığı namazın səhihliyi xüsusunda rahat olacaq.

Yox, əgər namazı vaxtında qılmasa, əsla rahat olmaz. Hər zaman şübhə içərisində qalar. Birdən həmin adam bu halda dünyasını dəyişsə və sonradan ona bəlli olsa ki, onun tutduğu mövqe səhv idi, o zaman onun halı necə olacaq?! Risklərlə dolu macəralar nəyə lazımdır?!! Bunun alternativi isə hər

namazı öz vaxtında qılmaqdır. Bu daha asandır və bu barədə fikir ittifaqı mövcuddur.

### Ayə namazların cəm olunmasına deyil, tək qılınmasına dəlildir

Bununla belə, ayəni aramla tilavət edən kəs görər ki, o, hər bir namazın öz vaxtında və ayrılıqda qılınmasına dəlalət edir. Namazların cəm olunmasına isə orada heç bir dəlil yoxdur.

Uca Allah buyurur: "**Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl.**"[18] Gecənin qaranlığı deyildikdə, onun zülməti nəzərdə tutulur – *əl-ğasiq* sözü zülmət gecə mənasındadır. Uca Allah buyurur: **"Çökən zülmətin şərindən".**[19]

Bu o deməkdir ki, Allah müsəlmanların gündəlik qıldıqları fərz namazlardan sonucusunun gecənin zülmət vaxtında olduğunu vacib buyurmuşdur. Yəni sonuncu namaz – yəni İşa namazı gecənin qaranlığından öncə qılınmamalıdır. Reallıqda isə bəzi məscidlərdə namazlar gecə qaranlığından öncə qılınıb bitir. Onlar Məğrib və İşa namazlarını cəm edərək məğribin vaxtında, üfüqdəki qırmızı şəfəq itməmişdən və gecənin qaranlığı gəlməmişdən öncə qılırlar. Halbuki bu, xatırlanan

[18] "əl-İsra" surəsi, 78.

[19] "əl-Fələq" surəsi, 3. əl-İsfahaninin "Mufradətul-Quran" əsərində "Ğasəqa" babına bax.

ayədə buyurulana ziddir. Çünki orada deyilir: "**Gün batmağa meyl edəndən gecənin qaranlığınadək** ***bəlli vaxtlarda*** **namaz qıl."**[20] Bu Allahın əmrinə müxalif olduğu üçün səhih deyildir.

## Qurana ən xeyirli təfsir verən Rəsulullahdır

İzzət və Cəlal Sahibi Allah Öz elçisinə xitabən buyurur: **"*Biz onları* aydın dəlillər və kitablarla *göndərdik*. Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən."**[21] Həmçinin buyurur: **"Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən."**[22] Peyğəmbərin ﷺ də bəyanı ya sözlə, ya əməllə, ya da ki, görüb susması ilə olur.

Elə isə, gəlin mübahisə etdiyimiz kəsdən soruşaq: "Məgər Rəsulullah ﷺ bu məsələni bəyan etməyibmi? Bəlkə o, bunu bəyan etməyib, açıqlamasız saxlayıb? Əlbəttə ki, o, həm sözü, həm feili, həm də görüb susması ilə bunu bəyan edib. Şəkk yoxdur ki, Rəsulullahın ﷺ sözü, əməli və görüb susması Quranın nazil olunmasının bəyanıdır.

İndi belə bir sual yaranır: Rəsulullah ﷺ neçə vaxt fərz namazı qılardı? Əgər üç vaxtdırsa, məsələ aydındır ki, namazlar üç vaxtda qılınmalıdır. Yox, əgər Rəsulullahın ﷺ beş ayrı vaxtda namaz qıldığı məsələsində yekdillik mövcuddursa,

---

[20] "əl-İsra" surəsi, 78.

[21] "ən-Nəhl" surəsi, 44.

[22] "ən-Nəhl" surəsi, 64.

onda bu, ixtilafa son vermək üçün yetərli deyilmi? Çünki Rəsulullah ﷺ Rəbbinin xitabını ən gözəl şəkildə anlayan, təfsir edən və ona əməl edəndir.

### Peyğəmbər ﷺ beş fərqli vaxtda namaz qılardı

Bütün müsəlmanların yekdil rəyinə görə, Peyğəmbər ﷺ beş vaxt namazı ayrıca vaxtlarda qılardı. Həmçinin onun məscidində üç vaxt deyil, beş vaxtda azan verilərdi. Səfər, xəstəlik, yağış, şiddətli soyuq və ya ümmətinə çətin olmasın deyə, öyrətdiyi müstəsna hallar xaricində o, əsla üç vaxt namaz qılmazdı. Ümumi qayda və mövcud qanun onun beş vaxt azan və namaz qıldırdığını göstərir. Bu, Quranda sözügedən mövzu ilə əlaqədar ayələrin aydın və əməli bəyanı, praktiki tətbiqidir.

Fikrimizcə, Peyğəmbərinə ﷺ və ona tabe olanlara hörmətlə yanaşan hər bir müsəlman üçün mövcud ixtilafa son qoymaqdan ötrü bu kifayətdir.

Elə isə, gəlin məscidlərimizdə namazlarımızı beş vaxt qılaq. İstisna hallarda isə üç vaxt qılınmasında bir qəbahət yoxdur.

Məgər həm əqli, həm də nəqli dəlillərlə bu məntiqi uyğunluq deyilmi?

Raşidi xəlifələr də (Allah onlardan razı olsun) bu yolla getmişlər. Onlardan biri olan Əli ibn Əbu Talib ﷺ də beş ayrı vaxtda namaz qılardı. Onun zamanında Kufə məscidində və

ya başqa məscidlərdə üç dəfə azan verilməsi ilə bağlı heç bir məlumat yoxdur. Ondan sonra gəlmiş müsəlmanlar da yer kürəsinin şərqində də, qərbində də belə etmişdilər.

### Namazı ayrı vaxtlarda qılmaq yekdilliklə daha əfzəldir

Əgər namazların cəm olunmasını caiz görən istənilən alimə sual versən ki, hansı daha əfzəldir, cəm etmək, yoxsa hər bir namazı ayrıca qılmaq?, cavabında deyəcək ki, ayrıca qılmaq daha əfzəldir, cəm etmək isə sadəcə icazəlidir, vacib deyil.

Buna əsasən kim daha əfzəl bir iş görmək istəyərsə, daha çox savab əldə etməyə çalışarsa nə etsin? Axı məscidlər yalnız üç vaxtda – sübh, zöhr və məğrib namazlarının vaxtında açılır. Nə üçün məscidlərdə beş vaxt azan verilmir? Belə etmiş olsaq daha əfzəl əməl etmək istəyənlərə şərait yaratmış olarıq. Kim də əgər cəm etmək istəyirsə, bu onun öz işidir – istədiyi kimi namazlarını üç vaxtda qıla bilər. Bəs bizlər nə üçün bunu etmirik? Nə üçün əfzəl olmayanı etməkdə israrlıyıq? Əfzəl olanı etmək istəyəni isə bundan məhrum edirik?!

### Mübah bir əməl harama gətirib çıxararsa, haram hesab olunur

Şəri cəhətdən məlumdur ki, (mübahın ən ali dərəcəsi sayılan) müstəhəb bir əməli etmək vacibin itirilməsinə səbəb olarsa, həmin müstəhəb əməli etmək icazəli deyildir. Əks

təqdirdə, harama düşmüş olarıq. Misal olaraq əsr namazının vaxtının çıxmasına az bir müddət qalırkən, həmin namazı qılmamış kəsin nafilə namaz qılmasını göstərmək olar. Əgər o, nafiləni qılsa, fərz namazını qılmadan gün batacaq. Yaxud da sübh namazını gün çıxmamışdan öncə qılmamış kəs, əgər nafilə qılarsa, gün çıxacaq və o fərzi qılmamış olacaq.

Əslində, nafilə namazı qılmaq müstəhəb olsa belə, bu halda harama çevrilir. Həmçinin, mübah əməl vacibin tərk olunması ilə nəticələnirsə, harama çevrilir və haram sayılır. Hətta vəziyyət bundan da ağırdır. Yüz dinar qazanaraq min dinar itirmək nə dərəcədə ağlabatandır? Namazları bir yerdə qılmaq da belədir – ən yaxşı halda bu, caiz və ya mübah hesab olunur. Lakin bu, təfriqənin – cəmiyyətin bölünməsinin ən böyük təzahürlərindəndir. Bununla görünür ki, hər tayfanın özünəməxsus namazı, məscidi və azanı vardır. Bu da haramların ən böyüyüdür. Bunlar bir araya necə gələ bilər axı? Bunun günahını kim daşıyır?!

# İKİNCİ FƏSİL

## Qurani-Kərimdə namazların beş vaxtı

Uca Allah buyurur: **“Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin.** *Düşmənin hücum etməyəcəyindən* **arxayın olduqda isə, namazı** *lazımi qaydada* **qılın. Çünki namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir”**[23] **–** yəni müəyyən vaxtlarda fərz buyurulmuşdur. Hər bir namazın özünəməxsus vaxtı vardır və namazların adları da həmin vaxtlarla bağlıdır. Nə sübh namazının vaxtı günorta vaxtı ola bilməz, nə zöhrün vaxtı axşamçağı ola bilməz, nə də ki məğribin vaxtı gecə vaxtı ola bilməz.

Misal üçün, sən öz dostuna deyirsən ki, axşamçağı mənim yanıma gəl. O da bu sözdən anlayır ki, axşamçağı deyildikdə, günorta namazının vaxtı və ya zöhr namazından on dəqiqə sonrakı vaxt nəzərdə tutulmur. Halbuki bəziləri heç bir şəri, əqli və ya ənənəvi dəlilə əsaslanmadan belə bir şeyi söyləyir.

Yaxud desən ki, gecə vaxtı mənim yanıma gəl, həmin adam gün batan vaxtı deyil, şəfəq itdikdən sonra zülmət qaranlıqda sənin yanına gələcəkdir. İnanmırsansa, yoxlaya bilərsən.

---

[23] “ən-Nisa” surəsi, 103.

Uca Allah da namazlara həmin vaxtlarla əlaqəli adlar vermiş, sonra da həmin namazların öz vaxtında əda edilməsini buyurmuşdur. Təbii ki, söhbət narahat durumdan, döyüş zamanından, səfər vaxtından, güclü yağış, xəstəlik və buna bənzər digər hallardan getmir. Uca Allah buyurur: "**arxayın olduqda isə, namazı *lazımi qaydada* qılın" –** yəni namazları öz vaxtlarında, rüknləri və şərtləri ilə birlikdə qılın. Sonra O buyurur: **"Çünki namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir."**

Bu ayə səfər, hicrət, ruzi axtarışında vətəndən ayrılma, xəstəlik və ya döyüş meydanında qorxu halı kimi müxtəlif fövqəladə hallar zamanı namazın necə qılınması barədə nazil olmuşdur. Şəkk yoxdur ki, bu kimi hallarda namazları cəm etmək lazımdır. Uca Allah yağışdan əziyyət və xəstəlik kimi halları da qeyd edərək buyurur: "**arxayın olduqda isə, namazı *lazımi qaydada* qılın."**

Uca Allah bütün bu hallar barədə buyurur: **"Allah yolunda hicrət edən kəs yer üzündə çoxlu gözəl yer və bolluq tapar. Kim Allaha və Onun rəsuluna tərəf hicrət edərək evindən çıxdıqdan sonra ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah bağışlayandır, rəhmlidir. Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur. Şübhəsiz ki, kafirlər sizin açıq-aydın düşməninizdir. Sən *səhabələrinin* arasında olub onlara namaz qıldırdığın zaman onların bir dəstəsi səninlə birlikdə namaza dursun, silahlarını da**

*özləri ilə* **götürsünlər. Bunlar səcdə etdikləri zaman** *birinci rükəti tamamlayanadək o biri dəstə* **arxanızda olsun.** *Sonra* **namazını qılmamış digər dəstə gəlib səninlə birlikdə namaz qılsın, ehtiyatlarını** *tutsunlar* **və silahlarını da** *özləri ilə* **götürsünlər. Kafirlər istərlər ki, siz silahlarınızdan və əşyalarınızdan xəbərsiz olasınız və onlar da sizin üzərinizə bircə dəfə hücum etsinlər** – *bir həmlədə sizi məğlub etsinlər*. **Əgər siz yağışdan əziyyət çəksəniz və ya xəstə olsanız, silahlarınızı yerə qoymaqda sizə günah yoxdur, lakin ehtiyatınızı əldən verməyin. Şübhəsiz ki, Allah kafirlər üçün alçaldıcı bir əzab hazırlamışdır. Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin.** *Düşmənin hücum etməyəcəyindən* **arxayın olduqda isə, namazı** *lazımi qaydada* **qılın. Çünki namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir."**[24]

Bu da Uca Allahın aşağıdakı ayəsinə bənzəyir: **"Namazları,** *xüsusilə* **orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun. Əgər** *nədənsə* **qorxsanız,** *namazınızı* **ayaq üstə və ya minik üzərində** *qılın*. **Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!"**[25]

Qorxu halı barədə ən-Nisa surəsində Uca Allah buyurur: **"Yer üzündə səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanızda sizə günah yoxdur".** Rahatlıq və əmin-amanlıq halı barəsində isə

---

[24] "ən-Nisa" surəsi, 100-103.

[25] "əl-Bəqərə" surəsi, 238-239.

buyurur: **"Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin!"**[26] Bu xüsusda ən-Nisa surəsində Uca Allah belə buyurur: **"Arxayın olduqda isə, namazı *lazımi qaydada* qılın. Çünki namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir."**[27] **–** yəni fövqəladə hal aradan qalxdıqda, əsl olana qayıdın. Uca Allah buyurur: **"Namazları, *xüsusilə* orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun."** Həmçinin buyurur: "**"Arxayın olduqda isə, namazı *lazımi qaydada* qılın. Çünki namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir."** Demək, kim bu istisna halları xaricində üç vaxt namaz qılarsa o, namazlarını qoruyan və onları vaxtlı-vaxtında qılan kəslərdən sayılmaz.

"Nəhcul-bəlağə" əsərində Əli ibn Əbu Talibdən ﵁ nəql olunmuş rəvayətdə deyilir ki, o, Muhəmməd ibn Əbu Bəkri Misirə əmir göndərdikdə ona belə deyir: "Namazları müəyyən olunmuş vaxtlarında qıl, səbəbsiz yerə vaxtlarını tezləşdirmə, məşğul olduqda da vaxtlarını gecikdirmə, unutma ki, bütün əməllərin namazlarına bağlıdır."[28]

### Quranda namaza verilən adlar

Uca Allah namaza müxtəlif adlar verərək onu fərqli adlarla adlandırmışdır:

---

[26] "əl-Bəqərə" surəsi, 239.

[27] "ən-Nisa" surəsi, 100-103.

[28] "Nəhcul-bəlağə". Muhəmməd Abduhun şərhi, 3/29.

– Bəzən onu *Quran* adlandırır ki, bu da qiraətlə əlaqəlidir. O, buyurur: **“... sübh çağı Quran oxu *(fəcr namazını da qıl)*! Çünki sübh çağı oxunan Quranın şahidləri olur.”** – yəni sübh namazı.

– Bəzən namazı *iman* adlandırır, çünki namaz imanın ən əzəmətli əməllərindəndir. O vaxt ki, yəhudilər müsəlmanların Kəbədən əvvəl Beytül-məqdisə tərəf qıldıqları namazların batil olduğunu iddia etdi, Uca Allah onların bu fikrini rədd edərək belə buyurdu: **“Biz, əvvəl üz tutduğun qibləni ancaq ona görə təyin etdik ki, peyğəmbərin ardınca gedənləri üz döndərənlərdən fərqləndirək. Bu, Allahın doğru yola yönəltdiyi şəxslərdən başqa *hamısına* ağır gəldi. Allah sizin imanınızı puç etməz.”**[29] – yəni namazınızı.

– Bəzən onu *zikr* adlandırır, çünki ən əzəmətli zikr namazdır. Uca Allah buyurur: “**Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!”**[30]

– Bəzən də namazı *təsbih* adlandırır. Belə ki, namazda Allaha çoxlu təsbih zikr olunur. Uca Allah buyurur: ***“Bu nur* Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. *Mömin kişilər* orada səhər-axşam Ona tariflər deyirlər.”**[31] Burada da namaz qəsd edilir, çünki insanın namaz vaxtı məscidə gəlib “sübhan Allah” deyib

---

[29] “əl-Bəqərə” surəsi, 143.

[30] “əl-Cumuə” surəsi, 9.

[31] “ən-Nur” surəsi, 36.

geri qayıtması ağlabatan deyildir. Məscidlər, içərisində namaz qılınsın deyə inşa edilmişdir. Məhz buna görə də ayənin ardınca buyurulur: "**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır."**[32] Daha sonra Uca Allah bütün məxluqların Allahı tərif etdiyini və namaz qıldığını buyurur: **"Məgər göylərdə və yerdə olanların, həm də qanad açıb uçan quşların Allaha təriflər dediklərini görmürsənmi? Hər biri öz duasını və həmd-sənasını bilir. Allah onların nə etdiklərini bilir."**[33]

Kuleyni bu xüsusda Əbu Abdullahın (Allah ondan razı olsun) belə dediyini rəvayət etmişdir: "Gün zeniti keçdikdə zöhr namazının vaxtı başlayır. Namaz vaxtı Allaha təriflər deyilməlidir. Bu səndən asılıdır – istəyirsən namazını uzat, istəyirsən qısalt."[34]

– Bəzən də namaz *dua* adlanır. Çünki namaz dualardan ibarətdir. Uca Allah bu xüsusda buyurur: **"Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar."**[35] Beləcə, namaza Allah tərəfindən müxtəlif adların verildiyinin şahidi oluruq.

### Əsr namazının vaxtı

Bu barədə ayələr çoxdur. Onlardan biri aşağıdakı ayədir:

---

[32] "ən-Nur" surəsi, 37.

[33] "ən-Nur" surəsi, 41.

[34] "Furu əl-Kafi", 3/276.

[35] "əl-Kəhf" surəsi, 28.

**"Namazları və *günortadan sonrakı* orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun."**[36]

Ərəb dilində *"vasat"* sözü iki bərabər tərəfə malik olan bir şeyə deyilir. Misal üçün 1-2-3-4-5 rəqəmlərinin ortası üç rəqəmidir. Tərtib baxımından da namazların sıralamasında əsr namazı sayca üçüncü olduğu üçün, orta namaz hesab olunur. Onun iki tərəfində də bərabər sayda namaz vardır – birinci tərəfdə sübh və zöhr namazları, ikinci tərəfdə isə məğrib və işa namazları. Əl barmaqları da belədir: orta barmaq olan üçüncü barmaq üç rəqəmini daşıyır. Həmin barmağın hər iki tərəfində bərabər sayda barmaq vardır – bir tərəfdə xinsar və binsar barmaqları, digər tərəfdə də şəhadət barmağı ilə baş barmaq.

**Sübh, zöhr, əsr, məğrib və işa namazları**

Qeyd etdiyimiz təfsir əksər alimlərin rəyidir. Belə ki, bu barədə Rəsulullahdan ﷺ səhih hədislər varid olmuşdur. Həmçinin şiə mənbələrində də əhli-beytdən bu xüsusda müxtəlif rəvayətlər nəql olunmuşdur. Bu da təfsirlərin ən güclüsüdür:

Buxari və Muslimdə keçən və Əli ibn Əbu Talibdən ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Bizləri gün

[36] "əl-Bəqərə" surəsi, 238.

batanadək orta namazı qılmaqdan yayındırdıqları üçün Allah onların məzarlarını və evlərini odla doldursun."[37]

Həmçinin Muslim, Əhməd və Əbu Davudun ləfzi belədir: "Onlar bizi orta namaz olan əsr namazından yayındırdılar."[38]

İbn Məsudun رضي الله عنه belə dediyi rəvayət olunur: "Müşriklər Rəsulullahı ﷺ gün qızarana və ya saralanadək əsr namazını qılmaqdan yayındırdılar. Rəsulullah ﷺ dedi: – Bizləri gün batanadək orta namaz olan əsr namazını qılmaqdan yayındırdıqları üçün Allah onların məzarlarını və daxillərini odla doldursun" və ya "Allah onların içərilərini və qəbirlərini odla doldursun."[39]

İbn Babaveyh əl-Qummi Əbu Cəfər əl-Baqirin (Allah ona rəhmət eləsin) belə dediyini rəvayət etmişdir: – Bəzi qiraətlərdə: "Namazları və orta namazı (əsr namazını) qoruyun və Allah qarşısında (əsr namazında) mütiliklə durun."[40]

---

[37] Buxarinin "Səhih" əsəri, "Cihad və siyər kitabı", "Müşriklərə bəddua etmək babı" (2773); Muslimin "Səhih" əsəri, "Məscidlər" kitabı, "Əsr namazının vaxtının ötürülməsinin ağırlığı babı" (202-627). Burada keçən ləfz Muslimə məxsusdur.

[38] Muslimin "Səhih" əsəri, "Məscidlər" kitabı, "Orta namazın əsr namazı olması babı" (205-627); Əhmədin "Müsnəd" əsəri (617); Əbu Davud (409).

[39] Muslimin "Səhih" əsəri, "Məscidlər" kitabı, "Orta namazın əsr namazı olması babı" (268).

[40] "Mən lə yəhduruhul fəqih", 1/196; əl-Kuleyninin "Furu əl-Kafi" əsəri, 3/271.

əl-Qummi Həsən ibn Əlinin ﷺ belə dediyini rəvayət etmişdir: – Əsr namazına gəlincə, o, İzzət və Cəlal Sahibi olan Allaha ən sevimli namazlardan hesab olunur. Namazlar arasında onu qorumaq mənə tövsiyə olunmuşdur."[41]

Bütün bunlar orta namazın məhz əsr namazı olmasına dəlalət edir.

## Əsr namazı fəcr namazı ilə qoşa zikr olunur

Uca Allah buyurur: ***"Bu nur* Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. *Mömin kişilər* orada səhər-axşam Ona təriflər deyirlər. O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar."**[42] Ayədəki *"əl-asal"* kəlməsi əsr namazından məğribədək olan vaxt mənasını verir.[43]

Məlumdur ki, əsr namazının vaxtı zöhr namazının vaxtının girməsindən bir neçə saat sonra daxil olur. Kim əsr namazını zöhrdən əvvəl qılmış olarsa, Uca Allahın buyurduğu kimi, səhər-axşam Allahı zikr edərək Ona həmd-sənalar edən şəxslərdən sayılmaz.

---

[41] "Mən lə yəhduruhul fəqih", 1/137.

[42] "ən-Nur" surəsi, 36-37.

[43] ər-Razinin "Muxtar əs-Sihah" əsəri (1/11).

Bu iki namazın vaxtı müxtəlif yerlərdə birlikdə işlənmişdir. Uca Allah buyurur: **“Ey iman gətirənlər! Allahı tez-tez yada salın! Səhər-axşam Onun şəninə tariflər deyin!”**[44] Kim əsr namazını öz vaxtında qılmazsa, həmin şəxs Uca Allahın buyurduğu kimi, Onu zikr edib şəninə tərif edənlərdən olmaz. Əksinə, bu münafiqlərin vəsfidir. Uca Allah onların barəsində buyurur: **“Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki *Allah* onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər.”**[45] Həmçinin buyurur: **“Səhər-axşam Rəbbinin adını zikr et!”**[46]

Başqa bir ayədə isə belə buyurur: **“Göylərdə və yerdə olan məxluqlar da, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir.”**[47]

Odur ki, ey müsəlman, sən bu mübarək vaxtda bütün məxluqatdan fərqlənə bilməzsən. Əks təqdirdə sən öz Rəbbinə onlar kimi səcdə etməmiş olacaqsan!

**“Gün batmamışdan öncə”**

Uca Allah əsrin vaxtını dəqiq vəsflə Qurani-Kərimdə müxtəlif yerlərdə “Gün batmamışdan öncə” – deyə buyurur.

---

[44] “əl-Əhzab” surəsi, 41-42.

[45] “ən-Nisa” surəsi, 142.

[46] “əl-İnsan” surəsi, 25.

[47] “ər-Rəd” surəsi, 15.

Quranda əsr namazının vaxtı zöhr vaxtı və ya zöhrdən on dəqiqə sonra deyə buyurulmamışdır. Uca Allah bu xüsusda buyurur: “**Sən onların dediklərinə səbir et! Gün doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbini həmd ilə təriflə!”**[48]

Şəkk yoxdur ki, bu iki vaxt – “gün doğmamışdan əvvəl” və “batmamışdan əvvəl” sübh və əsr namazlarının vaxtıdır.

Həmçinin buyurur: **“Onların dediklərinə səbir et. Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbini həmd-səna ilə təriflə, gecənin bəzi saatlarında və gündüzün iki başında Ona tariflər de ki, bəlkə razı qalasan.”**[49] Elə isə əsr namazını zöhr namazı ilə birlikdə qılanlar üçün gün batmamışdan öncə qılınan namaz haradadır? Məgər gün batmamışdan öncə ifadəsini zöhr namazı mənasında açıqlamaq olarmı? Yaxud da gün batmamışdan öncə deyildikdə zöhr namazının vaxtının nəzərdə tutulduğunu deyə bilərikmi?

### Əsr və sübh namazı andla xüsusiləşmişdir

Uca Allah Öz Kitabında bu iki vaxtı digərlərindən andla fərqləndirmişdir ki, bu da həmin namazların özəl və əzəmətli olduğuna görədir. Peyğəmbərin ﷺ söylədiyi kimi, başqa vaxtlarda deyil, məhz bu iki vaxtda gecə və gündüz mələkləri toplanırlar. Həmin vaxtların əzəmətindəndir ki, o vaxtlarda

[48] “Qaf” surəsi, 39.

[49] “Ta ha” surəsi, 130.

namaz qılasan. Elə isə zöhr namazını qılıb Uca Allahın and içdiyi əsr namazını necə qılmamaq olar? O, buyurur: **"And olsun axşamçağına ki, insan ziyan içindədir."**[50] Hətta Uca Allah Öz Kitabındakı surələrdən birinə bu adı vermişdir: Əsr surəsi. Rəbbimiz digər namaza and içərək buyurur: **"And olsun sübhə və on günə."**[51] Bu namazın da adına Quranda surə vardır: Fəcr surəsi.

Elə isə Allah əsr vaxtına bu qədər önəm verdiyi halda, bizlər nə üçün bu mövzuya əhəmiyyət verməməliyik? Nə üçün şəkk və şübhələrə əsaslanaraq, üzrxahlıq gətirərək rüxsətlərə qaçmalıyıq?

### "əl-Əşiy" sözünün mənası əsrdir

Uca Allah əsr namazını həm də başqa bir *"əl-Əşiy"* adı ilə adlandırır, onu da sübh namazı ilə müqayisə edir. Bu adlar səhər və axşam çağı vaxtı Rəbbinə dua edərək Onu zikr edənlər barədə söhbət açıldıqda qeyd olunur və Rəsulullaha ﷺ əmr olunur ki, belələri ilə xoş davransın və onlara pislik eləməsin.

Uca Allah buyurur: **"Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bər-bəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz,**

---

[50] "Əsr" surəsi, 1-2.

[51] "Fəcr" surəsi, 1-2.

**nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!"**[52]

Həmçinin buyurur: **"Rəbbinin Üzünü diləyərək səhər və axşam çağı Ona dua edənləri** *yanından* **qovma."**[53]

### Uca Allah peyğəmbərlərə sübh və əsr vaxtı namaz qılmağı əmr etmişdir

Uca Allah Zəkəriyyə peyğəmbəri xatırlayaraq buyurur: **"O dedi: "Ey Rəbbim! Mənim üçün bir əlamət təyin et".** *Allah* **dedi: "Sənin əlamətin, üç gün insanlarla ancaq işarə ilə danışmaq olacaqdır.** *Həmin vaxtda* **Rəbbini çox yad et və səhər-axşam** *Onun şəninə* **tariflər de!"**[54]

Həmçinin Musa peyğəmbərə xitabən buyurur: "**Səbir et! Həqiqətən, Allahın vədi haqdır. Günahının bağışlanmasını dilə, axşamüstü və sübh çağı Rəbbini həmd ilə təriflə."**[55]

Qeyd olunan ayələr bu iki vaxtın xüsusi olduğuna sübutdur. Belə ki, Rəbbimiz həmin vaxtlarda namazı davamlı şəkildə qılmağı əmr edir.

---

[52] "əl-Kəhf" surəsi, 28.

[53] "əl-Ənam" surəsi, 52.

[54] "Ali İmran" surəsi, 41.

[55] "Ğafir" surəsi, 55.

**Quranda *"əl-əşiy"* deyildikdə nəyin nəzərdə tutulduğu açıqlanır**

Ola bilsin ki, bəziləri *"əl-əşiy"* sözünün mənasının səhvən işa bildirdiyini düşünsün. Lakin Qurana qayıtsaq görərik ki, *"əl-əşiy"* deyildikdə əsr vaxtı nəzərdə tutulur. Çünki Quranı ən yaxşı açıqlayan elə Qurandır.

Uca və İzzətli Allah buyurur: **"Biz Davuda Süleymanı bəxş etdik. O necə də gözəl qul idi! Daima *Allaha* üz tutardı. Bir dəfə axşam çağı ona *üç ayağı üstündə durub bir ayağının* dırnağını yerə vuran, çapar atlar göstərildi."**[56] Göründüyü kimi, ayədə "əl-əşiy" deyildikdə əsr vaxtı nəzərdə tutulur. Belə ki, çapar atlar nə günorta göstərilir, nə də ki, gecənin zil qaranlığında. Axşamçağı vaxtı isə işıqlı və nisbətən sərin olduğu üçün atlara baxmaq və at çapmaq üçün ən münasib vaxt hesab olunur. Buna görə də sonrakı ayədə buyurulur: ***"Süleyman* dedi: "Mən, *günəş* üfüqdə batanadək nemətə olan məhəbbəti Rəbbimi zikr etməkdən üstün tutdum – *atlar məni əsr namazından yayındırdı"*.**[57] – yəni günəş batanadək. Deməkatlar əsr vaxtı gün batanadək göstərilmişdi.

İbn Babaveyh əl-Qummi İmam Cəfər əs-Sadiqin belə dediyini rəvayət etmişdir: "Süleyman ibn Davuda həmin gün axşamçağı vaxtı atlar göstərildi. Onun da başı gün batanadək

---

[56] "Sad" surəsi, 30-31.

[57] "Sad" surəsi, 32.

atlara qarışmışdı. Sonra o, mələklərə dedi: – Günəşi mənim üçün geri qaytarın ki, namazımı vaxtında qılım".[58]

Digər bir ayədə Uca Allah buyurur: **"Odur ki, siz axşama çatanda və səhərə çıxanda Allahın şərəfinə çoxlu tərif söyləyin. Göylərdə və yerdə həmd Ona məxsusdur. Axşam çağında da, günortaya yetişəndə də *Onun şərəfinə təriflər deyin!"*[59]** Axşama çatanda – yəni məğrib və işanın vaxtında, səhərə çıxanda – yəni sübh vaxtı. Günortaya yetişəndə – yəni zöhr vaxtı. Yalnız əsr vaxtı qalır ki, onu da Allah "əl-əşiy" deyə adlandırır. Beləliklə, Uca Allahın "əl-əşiy" sözünün mənasının əsr vaxtı olduğu isbat olunur.

### İşa namazının vaxtı

Uca Allahın işa namazı üçün təyin etdiyi vaxt şəfəqin itdiyi və gecənin qaranlığının olduğu vaxtdır və məğrib namazından dərhal sonra deyildir.

Bu xüsusda Uca Allah buyurur: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl və sübh çağı Quran oxu *(fəcr namazını da qıl)*! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."[60]** Gecənin qaranlığı zülmətin olduğu vaxtdır. *Ğasəq* sözünün lüğəti mənası axan deməkdir. *Ğasəqatil-aynu* deyildikdə, göz yaşının axması

---

[58] "Mən lə yəhduruhul fəqih", 1/202.

[59] "ər-Rum" surəsi, 17-18.

[60] "əl-İsra" surəsi, 78.

nəzərdə tutulur. Uca Allah bu barədə buyurur: "**Bu, qaynar su və irindir. Qoy onu dadsınlar!**"[61] Buradakı *ğassəq* kəlməsi Cəhənnəm əhlinin cəsədlərindən axan irin mənasındadır. Ərəblər deyər: *Ğasəqatil curhu,* yəni yaradan su çıxdı. Sanki yer üzərinə zülmət axır və o zülmətə bürünmüş olur. Uca Allah buyurur: **"çökən zülmətin şərindən"**[62] **–** yəni gecə düşdükdə. Çünki həmin vaxt xoşagəlməz hadisələrin baş verməsi üçün daha münasib vaxtdır.

Gecə yalnız tam qaranlığa büründükdə və üfüqdə qırmızı şəfəq tam itdikdə *ğasəq* adlanır. Deməк, gecənin qaranlığı qırmızı işıq itməmişdən qabaq deyil, itdikdən sonra gəlir. Beləliklə, kim işa namazını bundan öncə qılmış olarsa, onu Allahın buyurduğu vaxtda qılmış sayılmaz.

Bu xüsusda Kuleyni öz isnadı ilə Cəfər əs-Sadiqin belə dediyini rəvayət etmişdir: "İşanın vaxtı şəfəq itdiyi vaxtdan gecənin üçdə birinədəkdir".[63]

Həmçinin Kuleyni öz isnadı ilə bir nəfərin Cəfər əs-Sadiqdən belə soruşduğunu rəvayət etmişdir: "Gecə nə vaxt düşür? O, dedi: – Qırmızı şəfəq itdikdə".[64]

Həmçinin Muhəmməd Baqirdən nəql olunur ki, Rəsulullah ﷺ demişdir: "Ümmətim üçün çətin olacağından qorx-

---

[61] "Sad" surəsi, 57.

[62] "əl-Fələq" surəsi, 3.

[63] "Furu əl-Kafi", 3/279.

[64] "Furu əl-Kafi", 3/281.

masaydım, əmr edərdim ki, işanı gecənin üçdə birinədək gecikdirsinlər". Başqa bir rəvayətdə isə: "Gecə yarıyadək".[65]

Şərif ər-Radi möminlərin əmiri Əlidən ﷺ ölkə əmirləri ilə bağlı məktubunda rəvayət edir ki, "İşa namazını da onlara şəfəq itdiyi vaxtdan gecənin üçdə birinədək qıldır."[66]

**İzin ayəsi**

İşa namazının vaxtını müəyyən edən ayələrdən biri də Uca Allahın aşağıdakı ayəsidir:

**"Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-büluğa çatmayanlar *yanınıza girmək istədikdə* qoy üç vaxtda sizdən izin istəsinlər: sübh namazından əvvəl, günorta paltarınızı çıxardığınız zaman və gecə namazından sonra. *Bu* sizin çılpaq ola biləcəyiniz üç vaxtdır. Qalan vaxtlarda bir-birinizin yanına *icazəsiz* girməkdə nə sizə, nə də onlara heç bir günah gəlməz. Allah ayələri sizə belə izah edir. Allah Biləndir, Müdrikdir."**[67]

Bu üç vaxtın xüsusi olaraq qeyd olunmasına səbəb insanların daha çox həmin vaxtlarda öz ailələri ilə xəlvətdə olmaları və həmin vaxtlarda onların yanına daxil olmaq istədikdə izn almağın lazım olduğudur. Uca Allah insanlara və uşaqlara göstəriş verir ki, böyüklərin yanına daxil olmaq istədikdə icazə istəsinlər. Bu icazəni də yalnız qeyd olunan üç vaxtda vacib

---

[65] "Furu əl-Kafi", 3/281.

[66] "Nəhcul-bəlağə", 3/83.

[67] "ən-Nur" surəsi, 58.

buyurur ki, çox girib-çıxanlar üçün çətin olmasın, eyni zamanda lazım olmayan mənzərələrlə üzləşməsinlər.

Şəkk yoxdur ki, gün batandan sonra öz ailəsi ilə xəlvətdə olmaq və yatağa uzanmaq müsəlmanların adətindən deyil. Bu yalnız ən azı gecə tam qaranlığa büründükdən sonra mümkündür. Bundan öncə isə yatmaq adəti məlum deyildir.

Bu da o deməkdir ki, İşa namazının vaxtı qaranlıq düşdükdə və üfüqdə qırmızı işıq tam itdikdən sonra girir. Məhz bu vaxtdan sonra insanların öz ailələri ilə birlikdə xəlvətdə olma ehtimalı vardır. Çünki insanlar gün batandan dərhal sonra yatmırlar. Əgər işa namazının vaxtı gün batan kimi olsaydı, o zaman Allah izin istəməyi başqa bir vaxta salmazdı. Həmin vaxt insanlar əyinlərini soyunmur və ailələri ilə xəlvətdə qalmadıqlarına görə, ayədə göstərildiyi kimi, izn istəməyə də ehtiyac qalmır. Demək Uca Allahın **"İşa namazından sonra"** ayəsi işa namazının vaxtını müəyyən edir ki, bu da gecənin qaranlığında, şəfəqdə qırmızı işığın itməsindən sonradır.

Bu da onu göstərir ki, İşa namazının vaxtının gecənin qaranlığında olması məlum məsələdir və ayə nazil olmamışdan da öncə bəlli idi. Belə ki, namazın vaxtının müəyyən olunması üçün bu ayə nazil oluna bilməzdi.

### Gecənin bəzi saatlarında

Bu xüsusda başqa bir dəlil Uca Allahın aşağıdakı ayəsidir: **"Gündüzün iki başında –** *əvvəlində və axırında* **və gecənin bəzi**

**saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır."**[68]

İbn Babaveyh əl-Qummi Zurara ibn Əyundan onun belə dediyini rəvayət etmişdir: "Mən Muhəmməd əl-Baqirə dedim: – Mənə Allahın fərz buyurduğu namazlar barədə məlumat ver. O dedi: – Gün ərzində beş vaxt namaz qılmaq buyurulmuşdur. Mən soruşdum: – Allah öz kitabında onların adını qeyd edərək bəyan edirmi? O dedi: – Bəli, İzzət və Cəlal Sahibi Allah öz peyğəmbərinə ﷺ belə xitab etmişdir: **"Gündüzün iki başında –** ***əvvəlində və axırında*** **və gecənin bəzi saatlarında namaz qıl!"** Ayədə *gün əyildikdə* deyilir ki, bu da günəşin zeniti keçdiyi vaxtdır. Bu iki vaxt, yəni günəşin zeniti keçdiyi vaxtdan gecənin qaranlığınadək dörd namaz vardır. Həmin namazlara Allah ad vermiş və onların vaxtını da müəyyən etmişdir. *Gecənin bəzi saatları* isə gecəyarıyadək olan vaxtdır. Sonra buyurur: **"sübh çağı Quran oxu (*fəcr namazını da qıl*)! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."**[69] Bu da beşinci namazdır. Həmçinin bu barədə buyurur: **"Gündüzün iki başında namazı qıl".** *Gündüzün iki başı* da zöhrlə məğrib vaxtlarıdır. Sonra buyurur: **"və gecənin bəzi saatlarında" –** bu da sonuncu işa namazıdır.[70]

---

[68] "Hud" surəsi, 114.

[69] "əl-İsra" surəsi, 78.

[70] "Mən lə yəhduruhul fəqih", 1/196.

# ÜÇÜNCÜ FƏSİL

## Rəsulullahın ﷺ qoyduğu vaxtlar

İndi də gəlin Peyğəmbərdən ﷺ varid olmuş səhih hədislərlə tanış olub onları Quran ayələri ilə müqayisə edək ki, aralarındakı uyğunluğun şahidi olaq.

Uca Allah buyurur: **“Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.”**[71]

Muslimin “Səhih” əsərində Rəsulullahın ﷺ belə dediyi rəvayət olunur: “Zöhrün vaxtı insanın kölgəsi özü boyda olduğu vaxtdan etibarən günəş əyildikdən əsrə qədərdir; Əsrin vaxtı günəş saralanadəkdir; Məğribin vaxtı şəfəq itənədəkdir; İşanın vaxtı gecənin yarısınadəkdir; Sübh namazının vaxtı isə Fəcrdən günəş çıxanadəkdir.”[72]

Həmçinin, Muslim Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Gün çıxmamışdan öncə və gün batmamışdan əvvəl namaz qılan bir kəsə Cəhənnəm odu toxunmaz” – yəni sübh və əsr namazlarını qılan kəs.[73]

---

[71] “ən-Nisa” surəsi, 82.

[72] Hədisi Muslim “Səhih” əsərinin “Məscidlər” kitabında, “Beş vaxt namazın vaxtları” babında nəql etmişdir (612-ci hədis). Bu hədisi “Nəhcul-bəlağə” əsərində oxşar babda Əlidən nəql olunan hədislə müqayisə et.

[73] Muslimin “Səhih” əsərinin “Məscidlər” kitabı, “Sübh və əsr namazlarının fəziləti” babı (634-cü hədis).

Muslim Əbu Busra əl-Ğifərinin belə dediyini rəvayət etmişdir: “Bir dəfə Rəsulullah ﷺ əsr namazını qılıb dedi: “Bu namaz sizlərdən öncəkilərə ərz olunmuş, onlar da onu itirmişdilər. Kim bu namazı mühafizə edərsə onun, əcri ikiqat olar.”[74]

Bu hədisi əl-Qumminin Həsən ibn Əlidən ؓ nəql etdiyi rəvayətlə müqayisə et: “Əsr namzına gəlincə, ... o İzzət və Cəlal Sahibi Allaha ən sevimli namazlardandır. O, namazlar arasında xüsusilə bu namazı mühafizə etməyi tövsiyə etmişdir.”[75]

– Muslim Abdullah ibn Məsudun ؓ belə dediyini rəvayət etmişdir: “Müşriklər Rəsulullahın ﷺ günəş qızarıb saralanadək əsr namazını qılmağa mane oldular. Rəsulullah dedi: “Bizləri orta namaz olan əsr namazını qılmağa qoymadılar, Allah onların içərilərini və qəbirlərini odla doldursun.”[76]

– Buxari və Muslim Abdullah ibn Ömərdən ؓ Rəsulullahın ﷺ belə dediyini rəvayət etmişdir: “Əsr namazını buraxan kəs ailəsini və mal-dövlətini itirmiş kimidir.”[77]

– Buxari və Muslim Ənəs ibn Malikin ؓ belə dediyini rəvayət etmişlər: “Rəsulullah ﷺ əsr namzını günəş yüksəkdə

---

[74] Hədisi Muslim “Səhih” əsərinin “Müsafirlərin namazı” kitabında, “Nəhy olunmuş namazlar” babında rəvayət etmişdir (830-cu hədis).

[75] “Mən lə yəhduruhul fəqih”, 1/213.

[76] Hədisi Muslim “Səhih” əsərinin “Məscidlər” kitabında, “Orta namazın əsr namazı olmasını deyən kəs” babında rəvayət etmişdir (628).

[77] Hədisi Buxari “Səhih” əsərinin “Namazın vaxtları” kitabında, “Əsr namazını buraxan kəsin günahı” babında (528), Muslim “Səhih” əsərinin “Məscidlər” kitabında, “Əsr namazını buraxanın günahının ağırlığı” babında (626) rəvayət etmişlər.

olarkən qılardı. İnsan şəhərətrafı təpələrə gedib qayıdar, günəş isə hələ yuxarıda idi. Bəzi təpələr isə Mədinədən təxminən dörd mil aralıda idi."[78]

– Həmçinin Buxari və Muslim Ənəs ibn Malikin ﵁ belə dediyini rəvayət etmişlər: "Bizlər əsr namazını qıldıqdan sonra birimiz Qubaya gedib qayıdar, günəş isə hələ də yüksəkdə olardı."[79]

– Başqa bir hədisdə Buxari və Muslim Cabir ibn Abdullahın ﵁ belə dediyini rəvayət etmişlər: "Rəsulullah zöhr namazını günorta vaxtı, əsri isə günəş saf görünərkən qılardı. Məğribi gün batdıqda, işanı isə bəzən tezləşdirər, bəzən də gecikdirərdi – insanların toplandığını gördükdə tezləşdirər, toplaşmadıqlarını gördükdə isə gecikdirərdi. Sübh namazını isə Peyğəmbər ﷺ sübhün alaqaranlığı vaxtı qılardı."[80]

– Yenə Buxari və Muslim Abdullah ibn Məsudun ﵁ belə dediyini rəvayət etmişlər: "Mən Rəsulullahdan ﷺ soruşdum:

---

[78] Hədisi Buxari "Səhih" əsərinin "Namazın vaxtları" kitabında, "Əsr namazının vaxtı" babında (525), Muslim "Səhih" əsərinin "Məscidlər" kitabında, "Əsr namazını tez qılmağın müstəhəbliyi" babında (621) rəvayət etmişdir.

[79] Hədisi Buxari "Səhih" əsərinin "Namazın vaxtları" kitabında, "Əsr namazının vaxtı" babında (526), Muslim "Səhih" əsərinin "Məscidlər" kitabında, "Əsr namazını tez qılmağın müstəhəbliyi" babında (621) rəvayət etmişdir.

[80] Hədisi Buxari "Səhih" əsərinin "Namazın vaxtları" kitabında, "Məğrib namazının vaxtı" babında (535), Muslim "Səhih" əsərinin "Məscidlər" kitabında, "Sübh namazını tez qılmağın müstəhəbliyi" babında (646) rəvayət etmişdir.

– Hansı əməl daha əfzəldir? Dedi: – Vaxtında qılınan namaz. Soruşdum: – Sonra hansı? Dedi: – Valideyinlərə qayğı göstərmək. Soruşdum: – Sonra hansı? Dedi: – Allah yolunda cihad etmək."[81]

**Möminlərin əmiri Əli ibn Əbu Talibə ﵇ görə namaz vaxtları**

Vaxtlarla bağlı "Nəhcul-bəlağə" əsərində varid olanlar[82] barədə düşün: "Əli ﵇ ölkə əmirlərinə namazın mənası barədə məktub yazdı: "Sonrasına gəlincə... Günəş keçilərin oturduğu yerdən görünənədək zöhr namazını qılın, günəş ağ və aydın görünən vaxtı iki fərsəx uzunluğunda gediləcək müddətdə əsr namazını qılın. Oruclular iftar edəndə və həcc ziyarətinə gedənlər hərəkətə başladıqda məğrib namazını qılın. Qırmızı şəfəq itdikdən sonra gecənin üçdə birinədək işa namazını qılın. İnsan yanındakının üzünü görə bildiyi vaxt isə sübh namazını qılın."

Bu da beş vaxt namazın vaxtlarının təfsilatlı bəyanıdır. Hər bir namazın özünəməxsus və digərlərindən fərqli vaxtı vardır.

---

[81] Hədisi Buxari "Səhih" əsərinin "Namazın vaxtları" kitabında, "Vaxtında qılınan namazın fəziləti" babında (504), Muslim "Səhih" əsərinin "İman" kitabında, "Allaha iman ən əfzəl əməldir" babında (85) rəvayət etmişlər.

[82] "Nəhcul-bəlağə", 3/82.

“Günəş keçilərin oturduğu yerdən görünənədək zöhr namazını qılın” sözünə gəlincə, bunun mənası həmin vaxtadək zöhr namazının vaxtı olmasıdır. Keçilərin oturduğu yer deyildikdə, divar nəzərdə tutulur. Əsr namazı isə bir şeyin kölgəsinin özü boyda olduğu vaxtdan sonra başlayır. Məhz bundan sonra əsr namazının vaxtı daxil olur və günəş ağ və aydın olandan saralanadək davam edir. Saraldıqdan sonra isə zərurət halı olmadıqda, həmin vaxtda namaz qılınması bəyənilmir.

“Qırmızı şəfəq itdikdən sonra gecənin üçdə birinədək işa namazını qılın” sözünə gəlincə, günəş kimi aydın bir dəlildir ki, işa namazının vaxtı qırmızı şəfəq itdikdən sonra daxil olur.

Doktor, böyük şiə alimi Əbu Həsən əl-İsfahaninin nəvəsi Musa Musəvi müsəlmanlar arasında vəhdət və birlik üçün çalışanlardan idi. Eyni zamanda o, Nəcəf şəhərindəki elmi mərkəzdən hicri 1371-ci ildə ictihad və alimlik diplomuna layiq görülmüşdür. Mövzu ilə bağlı onun dəyərli fikirlərindən bəzi hissələri nəzərinizə çatdırırıq:

“Əksər şiə alimlərinin fətvasına görə, namazlar öz vaxtlarında qılınmalıdır. Lakin praktiki olaraq cəm edirlər. Əslində beş vaxt namaz müəyyən vaxtlarda fərz buyurulmuş və həmin vaxtlarla bağlı da adlandırılmışdır. Yəni əsrin vaxtı zöhrün vaxtından fərqlidir. İşanın da vaxtı zaman etibarı ilə məğribin vaxtından fərqlidir. Şəkk yoxdur ki, namazların bu beş vaxtda fərz buyurulmasında, namazın dinin sütunu və islamın əsas şüarlarından biri hesab olunmasında ilahi bir hikmət vardır. Rəsulullah ﷺ namazları Mədinədə öz məscidində belə qılardı.

Ondan sonra xəlifələr, o cümlədən də İmam Əli ﷺ də namazları bu beş vaxtda qılardı. Şiə imamlarının da halı bunlara bənzərdir. Rəsulullahın ﷺ səfər xaricində zərurətdən dolayısı yalnız bir-iki dəfə namazlarını cəm etməsi isə bu işin rüxsətli olduğunu bildirir. Əməli olaraq isə o ﷺ, namazlarını beş vaxtda qılardı.

Kaş ki, əksər müsəlmanların etdiyi bir əməllə bağlı belə bir ixitilafın nəyə xeyri olduğunu biləydim. Bəlkə bunu bəziləri şiələri bütün vəhdət təzahürlərindən ayırmaq məqsədilə etmişlər? Sonra da alimlər və məscid imamları bilərəkdən və ya bilməyərəkdən bunu davam etdirmişlər?

Biz isə bu doğruluq prosesində həm nəzəri, həm də əməli baxımdan birlik üçün çalışırıq. Risaləmizin məqsədi də fikri və əməli baxımdan təfriqəyə və bunun ətrafında olan məsələlərə həmişəlik son qoymaqdır. Bu da yalnız Peyğəmbərin ﷺ zamanına dönərək onun sünnəsinə sarılmaqla, namazları onun qıldığı kimi icra etməklə mümkündür. Düşünmürəm ki, müsəlmanların arasında elə birisi olsun ki, kiminsə görüş və rəyini Rəsulullahın ﷺ əməlindən üstün tutsun.

Bu məqamda şiə məscidlərinin imamlarını və şiələrin özünü namazları vaxtlarında qılmağa səsləyirik – qoy onlar da Peyğəmbərin ﷺ Mədinədə öz məscidində mühacir və ənsarlardan olan səhabələri ilə birlikdə qıldığı namaz kimi, beş vaxt namaza önəm versinlər. Əsla İslam Peyğəmbərinin ﷺ çəkdiyi yoldan azmasınlar. Çünki ona tabe olmaqla onlar daha da izzətli və hörmətli olacaqlar.

**Peyğəmbərin ﷺ namazları birləşdirməsinin səbəbi**

Namazların həmişə cəm olunması rəyində olanlar dəlil kimi Rəsulullahın ﷺ səfərdə, xəstə olduqda, yağış yağdıqda, çox soyuq olduqda və ya döyüşdə namazları cəm etdiyini, habelə Əlinin də bunu etdiyini əsas gətirirlər. Bununla onlar davamlı şəkildə namazların cəm olunmasının üzürlü olduğunu iddia edirlər.

Biz isə deyirik ki, yuxarıda qeyd olunan istisna hallarda namazlar cəm oluna bilər. Bu da zəruri səbəblərdən qaynaqlanır. Həmin səbəblər aradan qalxdıqda, istisna halı da aradan qalxmış olur və bizlər Rəsulullahın ﷺ adi hallarda nə etdiyinə əsaslanmalıyıq.

Əqli və şəri cəhətdən bu məsələnin əksini etməyimiz, istisnanı qaydaya çevirməyimiz, yaxud da qaydanı istisnaya çevirməyimiz və ya ümumiyyətlə istisnanı və ya qaydanı aradan qaldırmağımız doğru deyildir.

Rəsulullah ﷺ adi hallarda hər bir namazı öz adına müvafiq müəyyən olunmuş vaxtında qılırdı. İstisna hallarda da namazlarını cəm edərdi. Bizlərə də əmr olunub ki, şəri məsələlərdə ona tabe olaq. Peyğəmbər ﷺ demişdir: "Mən necə namaz qılıramsa, siz də elə qılın."[83]

Onun etdiklərinin əksini etməyimiz və namazları üzürsüz olaraq cəm etməyimiz ona tabe olmaqdan sayılmaz. Misal

---

[83] Buxarinin "Səhih" əsərinin "Azan" kitabı, "Müsafirin azan verməsi" babı (605).

üçün, Möminlərin əmiri döyüş vaxtı namazlarını cəm edərdi. Bu, yeməyə bir şey tapmadıqda zərurətdən leş ətini yeyənin misalına bənzəyir. Buna əsaslanıb namazı hər zaman cəm etməyi caiz görənlər leş ətini hər zaman caiz görənlərə bənzəyir. Biz deyirik ki, döyüşdə olduqda, səfərdə ikən, zərurət varsa namazlarını cəm et. Buna qarşı çıxan heç kim yoxdur. Döyüş yoxdursa və ya başqa üzür mövcud deyilsə, Möminlərin əmirinin adi vaxtlarda etdiyini etməlisən. Belə ki, o, hər namazı öz vaxtında qılardı.

## DÖRDÜNCÜ FƏSİL

### Mənbələrimizin həqiqəti

**"Peyğəmbərimizin ﷺ əhli-beytindən varid olan mənbələrimizin həqiqəti"** – Seyid Muhəmməd İskəndər əl-Yasiri ən-Nəcəfi[84] bu risaləyə nəzər saldıqdan sonra bu fəsli belə adlandırmışdır. Bu olduqca dəyərli bir fəsildir və oxucunun nurunun üzərinə nur gətirmiş olur. Oxucu bununla əmin olur ki, niyyətləri doğru, əzmləri düzgün, təəssübkeşlikdən uzaq olub həqiqəti aramış olduqları təqdirdə, müsəlmanların bir fikir ətrafında cəm olmaları heç də çətin bir şey deyildir.

Cənab Muhəmməd əl-Yasiri ən-Nəcəfi demişdir:

"Şəriətin namazların vaxtları barədə buyurduqları mənbələrimizdə və mötəbər kitablarımızda mövcuddur. Aşağıdakı mənbələrdən buna dəlalət edən bəzi hədisləri qeyd edəcəyik:

– Böyük şiə alimi Şeyx ət-Tusinin "əl-İstibsar" əsəri;

– İbn Babaveyh əl-Qumminin "Mən lə yəhduruhul-fəqih" əsəri;

---

[84] Bu şəxs müsəlmanların bir araya gəlməsi, məzhəblərin yaxınlaşması və düzgünlük istiqamətində çalışan şəxslərdən biridir. Bunun da əsas göstəricilərindən biri Qadisiyyədəki əl-Vahdə məhəlləsində yerləşən öz məscidi Xəlifələr məscidində beş vaxt azan verməsi, habelə beş vaxt namaz qıldırmasıdır. O, cümə namazının vacib olduğunu deyir və rayonun mərkəzində yerləşən ər-Rəsul məscidində 1993-cü ildən bəri cümə namazı qıldırır.

– əl-Kuleyninin “əl-Kafi” əsəri;

– ət-Tusinin “ət-Təhzib” əsəri;

– əl-Kaşaninin “əl-Vafi” əsəri;

– əl-Məclisinin “Bihar əl-Ənvar” əsəri.

Bu kimi bir sıra mötəbər əsərlərdən dəlillər varid edəcəyik ki, yuxarıda adı çəkilənlər onların əsaslarıdır.

1. (145) “Vaxtı daxil olmadan namaz qılmağın caiz olmaması” babı, “əl-İstibsar” (1-ci cild, 828). Hüseyn ibn Abdullah mənə bir neçə əshabımızdan sənədi ilə Əbu Abdullahın belə dediyini rəvayət etmişdir: “Namazı öz vaxtında qılmayanın namazı yoxdur”. Məsələn, əsr namazını başqa namazın vaxtında qılanın namazı batildir. İşa namazı və digər namazlar da belədir.

2. (146) “Hər namazın iki vaxtı vardır” babı, “əl-İstibsar” (1-ci cild, 870). Abdullah ibn Sinan demişdir: “Əbu Abdullah demişdir: – Hər namazın iki vaxtı vardır: vaxtın əvvəli ən əfzəl olan vaxtdır. Səbəbsiz yerə vaxtın sonunu vaxtın əvvəlinə çevirmək heç kəsə düşməz”.

Hədisin mənası odur ki, Zöhr namazını misal çəksək, görərik ki, onun vaxtı təqribən saat 12-dən 15:30-dək davam edir, yəni namazın vaxtının əvvəli saat 12, sonu isə 15:30-dur. Lakin zöhr namazını üzr və ya səbəb olmadan saat 15:30-dək yubatmaq caiz deyildir.

3. (147) “Zöhr və Əsr namazlarının əvvəli” babı, “əl-İstibsar” (1-ci cild, 922). İbn Vahb Əbu Abdullahdan rəvayət

edir ki: “Cəbrayıl namazın vaxtlarını müəyyən etdi: Günəş zeniti keçdikdə zöhr namazının qılınmasını əmr etdi. Əşyanın kölgəsi uzandıqda gəlib əsr namazının qılınmasını əmr etdi. Gün batdıqda gəlib məğrib namazını əmr etdi. Qırmızı şəfəq itdikdə isə gəlib işa namazının qılınmasını əmr etdi. Dan yeri söküldükdə də gəlib Sübh namazının qılınmasını əmr etdi. Növbəti gün əşyanın kölgəsi özü boyda olduqda, gəlib zöhr namazının qılınmasını əmr etdi. Kölgə iki dəfəyədək uzandıqda, gəlib əsr namazını əmr etdi. Gün batdıqda, gəlib məğrib namazını əmr etdi. Gecənin ilk üçdə biri keçdikdə, gəlib işa namazının qılınmasını əmr etdi. Səhər işıqlanmağa başlandıqda, gəlib sübh namazını əmr etdi və dedi: – Bunlar namazların vaxtıdır.”

Buna bənzər bir hədisi Buxari, Əhməd, Tirmizi və Nəsai də rəvayət etmişlər. Buxari demişdir: “Namazların vaxtları xüsusunda ən səhih hədis budur”.[85] Hədisin mənası: bu hədis fərz namazların vaxtlarını bəyan edir, onları dəqiq bir şəkildə şərhə ehtiyac olmadan açıqlayır. Bu məsələdə müsəlmanlar yekdil rəydədirlər və bu da müxaliflərə ən tutarlı dəlildir.

4. (926) İbrahim əl-Kərxi demişdir: “Mən Əbu Həsən Musadan soruşdum: – Zöhr namazının vaxtı nə zaman daxil olur? O dedi: – Günəş zeniti keçdikdən sonra. Mən dedim: – Bəs vaxtı nə zaman bitir? O dedi: – Vaxtı girəndən dörd addım (boy uzunluğu) keçdikdə. Zöhrün vaxtının əvvəli dardır. Mən dedim: – Bəs əsrin vaxtı nə zaman daxil olur? O dedi: – Zöhrün

---

[85] Seyid Sabiqin “Fiqhus-Sünnə” əsərinə bax, 1/98.

vaxtının sonundan sonra əsrin vaxtı daxil olur. Mən dedim: – Bəs əsr namazının vaxtı nə zaman bitir? O dedi: – Günəş batdıqda. O zaman namazı qılmaq *illət*, yəni onu itirmək hesab olunur. Mən dedim: – Əgər bir adam zöhr namazını günəş zeniti dörd addım (boy uzunluğu) keçdikdə qılarsa, sayılmırmı? Dedi: – Əgər bunu qəsdən edərsə, sünnəyə müxalif olar və bu vaxt qıldığı namaz qəbul olunmaz. Peyğəmbər fərz namazların vaxtlarını təyin etmiş və insanlar üçün müəyyənləşdirmişdir. Kim onun vacib sünnəsindən üz çevirərsə, İzzət və Cəlal Sahibi Allahın fərzlərindən üz çevirmiş sayılar."

Hədisdəki "vaxtı girəndən dörd addım (boy uzunluğu) keçdikdə" sözünə gəlincə, günəş zeniti keçdikdən sonra yaranan kölgə nəzərdə tutulur. Həmin kölgə dörd addım miqdarında uzandıqda və təxminən insanın öz boyu uzunluğunda uzanması mənasındadır.

5. (883) Əhməd ibn Ömər Əbul-Həsəndən rəvayət edərək demişdir: "Mən ona zöhrlə əsrin vaxtı barədə sual verdim. O dedi: – Zöhrün vaxtı günəş zeniti keçəndən əşyanın kölgəsinin özü boyda olduğu müddətədəkdir. Əsr namazı isə [əşyanın kölgəsinin] iki özü boyda olanadəkdir".

Hədisin mənası: "İnsanın (əşyanın) kölgəsinin öz boyu qədər olması. Əgər biri günorta vaxtı günəşin altında dayanarsa, kölgəsi öz boyu qədər olanadək zöhr namazının vaxtıdır. Zeniti keçərkən yaranan kölgə də digər rəvayətlərdə göstərildiyi kimi, ona əlavə olunur. Sonra da Əsr namazının vaxtı başlayır.

Əsr namazının vaxtı isə insanın kölgəsinin özü boyda olduğu vaxtdan iki özü boyda olduğu vaxtadəkdir. Bu vaxt ərzində namazı qılmaq daha fəzilətlidir. Üzr olduğu təqdirdə isə namazı günəş batanadək qılmaq olar.

Göründüyü kimi, zöhr namazının vaxtı kölgə ilə müəyyən olunur. İnsanın kölgəsinin öz boyu qədər olması vaxtı zeniti keçərkən yaranan kölgə də əlavə olunmaqla. Əsr namazının da vaxtı kölgə ilə müəyyən olunur. Əşyanın kölgəsinin özü boyda olduğu müddətdən iki özü boyda olanadəkdir.

6. (890) Əhməd ibn Muhəmməd demişdir: "Mən Əbu Abdullahdan zöhr və əsr namazlarının vaxtı barədə soruşdum. O dedi: – Bir boy zöhr, iki boy əsr."

Hədisin mənası: Zöhrün vaxtı günəş zeniti keçəndən əşyanın kölgəsinin özü boyda olduğu müddətədəkdir. Əsr namazı isə kölgənin iki özü boyda olmasınadəkdir. Bu vaxtlarda namaz qılmaq daha əfzəldir.

**Zöhrün vaxtı**

Günəş zeniti keçdi – – – – > kölgənin cisim boyda olması

**Əsrin vaxtı**

kölgənin cisim boyda olması – – – – > kölgənin iki özü boyda olduğu vaxtadək

7. (891) Zurara demişdir: "Mən Əbu Abdullahdan zöhr namazının vaxtı barədə soruşdum. O dedi: – Kölgən özün boyda olanadək zöhrün vaxtıdır. Kölgən iki özün boyda olanadək isə əsrin vaxtıdır".

Hədisin mənası: Zöhrün vaxtı günəş zeniti keçəndən əşyanın kölgəsinin özü boyda olduğu müddətədəkdir. Əsr namazı isə iki özü boyda olanadəkdir.

8. (917) Muhəmməd ibn əl-Həkim demişdir: "Mən əməli-saleh bəndənin (Əli ər-Ridanın) belə dediyini eşitmişəm: – Zöhrün vaxtı günəş zeniti keçəndən əşyanın kölgəsinin özü boyda olduğu müddətədəkdir. Əsr namazı isə iki özü boyda olanadəkdir. Mən soruşdum: – Qışda da, yayda da eynidirmi? O dedi: – Bəli."

Bu rəvayətdə zəruri bir aydınlatma vardır ki, o da boyun günəş zeniti keçdikdən sonra hesablanmasıdır. Həmin kölgə də yay və ya qış olmasına rəğmən boy uzunluğunun kölgəsinə əlavə olunur. Beləcə namazın vaxtı (zenitin kölgəsi + boy uzunluğunun kölgəsi) həm qışda, həm də yayda bir qaydaya çevrilir. Bu zöhr namazının vaxtının sonuna, əsr namazının vaxtının isə əvvəlinə aiddir.

9. (932) Əhməd ibn Muhəmməd Yezid ibn Xəlifədən rəvayət edərək demişdir: "Mən Əbu Abdullaha dedim: – Ömər ibn Hənzalə bizlərə səndən vaxt barədə xəbər gətirib. Əbu Abdullah dedi: – O, barəmizdə yalan danışmaz. Mən dedim: – O, sənin belə buyurduğunu deyir: "Uca Allahın öz Peyğəmbərinə ﷺ əmr etdiyi ilk namaz zöhrdür. Belə ki, İzzət

və Cəlal Sahibi Allah buyurur: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək *bəlli vaxtlarda* namaz qıl."** Günəş zeniti keçdikdə zikr etmək istisna olmaqla namazını qıla bilərsən. Zöhr namazının vaxtı bir şeyin kölgəsinin özü boyda olan vaxtadək davam edir. Bu vaxtın sonudur. Əşyanın kölgəsi özü boyda olduqdan sonra əsr namazı daxil olur. Əsr namazının da vaxtı bir əşyanın kölgəsinin iki özü boyda olanadək davam edir. Buna da axşam deyilir". Dedi: – Doğru deyir."

Bu rəvayətlər kifayət etdiyi üçün, uzun olmasın deyə digər rəvayətləri tərk etdim.

10. (149) "Məğrib və İşa namazlarının vaxtları" ("əl-İstibsar", 1-ci cild).

İbn Vahb Əbu Abdullahın belə dediyini rəvayət etmişdir: "Cəbrayıl Rəsulullaha ﷺ namazların vaxtlarını bildirdi... Sonra o, günəş batdıqda gəlib məğrib namazını qılmağı əmr etdi, o da namazı qıldı. Sonra qırmızı şəfəq itdikdən sonra gəlib əmr verdi və o, işa namazını qıldı... Sonra növbəti gün gəldi... Sonra o, günəş batdıqda gəlib məğrib namazını qılmağı əmr etdi, o da namazı qıldı. Sonra gecənin ilk üçdə birində gəlib işa namazını qılmağı əmr etdi, o da işa namazını qıldı... Sonra dedi: – Bu ikisinin arası namazın vaxtıdır".

11. (973) Zurara demişdir: "Əbu Cəfərdən Peyğəmbərin namazı barədə danışarkən belə dediyini eşitmişəm: – Məğrib günəş batdıqda qılınır. Qırmızı şəfəq itdikdə isə İşanın vaxtı daxil olur. İşanın vaxtının sonu isə gecənin ilk üçdə biridir".

12. (943) Usamə əş-Şəmma demişdir: "Bir kişi Əbu Abdullaha dedi: – Məğribin vaxtının sonu ulduzlar görünəndədirmi? İmam dedi: – Xattabi, Cəbrayıl bunun vaxtının günəş batdıqda olduğunu Muhəmmədə bəyan edib".

13. (950) İsmayıl ibn Cabir Əbu Abdullahın belə dediyini rəvayət etmişdir: "Mən ondan məğrib namazının vaxtı barədə soruşdum. O dedi: – Günəş batandan şəfəq itənədək."

14. (940) Amr ibn Əbu Nasr demişdir: Mən Əbu Abdullahın məğrib namazı haqqında belə dediyini eşitmişəm: "Günəş batdıqda namazın və iftarın vaxtı daxil olur."

15. (942) Əli ibn əl-Həkəm imamlardan birindən (ya Baqirdən ya da Sadiqdən) belə rəvayət etmişdir: "Ondan məğrib namazı barədə soruşdum. O dedi: – Günəşin kürsüsü batdıqda. Mən soruşdum: – Onun kürsüsü nədir? O dedi: – Yəni dairəsi. Mən dedim: – Onun dairəsi nə zaman batır? Dedi: – O vaxt ki, baxırsan, ancaq onu görmürsən."

16. (944) Abdullah ibn Sinan demişdir: Mən Əbu Abdullahın belə dediyini eşitmişəm: "Məğribin vaxtı günəş batdıqda və çevrəsi itdikdədir."

17. (946) Əbu Abdullah demişdir: "Peyğəmbər ﷺ günəş batdıqdan sonra üfüqdəki işığı itənədək məğribi qılardı."

18. (947) Əbu Abdullah demişdir: "Məğribin vaxtı günəş batdıqdadır."

19. (949) Əbu Abdullah demişdir: "Cəbrayıl Peyğəmbərin ﷺ yanına məğribin vaxtının sonunda, şəfəq itməmişdən öncə gəldi."

20. (970) Zureyh demişdir: "Mən Əbu Abdullaha dedim: – Əbul-Xattabın adamlarından biri məğribi ulduzlar çıxanadək gecikdirir. O dedi: – Bunu bilərəkdən edənlərdən Allaha sığınıram."

### İmamlara görə məğribi gecikdirənin hökmü

Bütün bu qeyd olunmuş hədislər sübut edir ki, kim qəsdən məğrib namazını ulduzlar çıxanadək gecikdirərsə, Rəsulullahın ﷺ sünnəsinə müxalib olub Kufədə bu bidəti çıxaran Xəttabilərə tabe olmuş olar. İmamlar isə belələrindən və bu əməli edənlərdən Allaha sığınmışlar.

### Üzürlü səbəblərdən namazları birləşdirmək

Səfər, müharibə, qorxu, xəstəlik və ya çətinlik kimi üzrlü səbəblərdən namazı gecikdirməyə və ya cəm etməyə gəlincə, bunu Peyğəmbər ﷺ və imamlar da etmişlər. Bu səbəblərdən bəzilərini Allah ən-Nisa surəsinin 101-102-ci ayələrində qeyd etmişdir. Bu hədisləri də sənə təqdim edirik:

1. (965) Yezid ibn Xəlifə demişdir: "Mən Əbu Abdullaha dedim: – Ömər ibn Hənzalə bizlərə sənin vaxt barədə dediklərini çatdırdı. Əbu Abdullah dedi: – O, bizim adımızdan yalan danışmaz. Mən dedim: – Deyir ki, məğribin vaxtı günəş

batdıqdan sonradır. Lakin Peyğəmbər ﷺ yolda olarkən məğribi gecikdirib işa ilə cəm edərdi. O dedi: – Doğrudur. Həmçinin dedi ki, işanın vaxtı qırmızı şəfəq itdikdən sonrakı vaxtdan gecənin ilk üçdə birinədəkdir.”

İmamın söylədiklərinə diqqət et: “Yolda (yəni səfərdə) olarkən”. Deməkk, səfər məğriblə işanı birləşdirmək üçün bir səbəbdir.

2. (966) Cəfəri Sadiq demişdir: “Bir dəfə Peyğəmbər ﷺ yağmurlu bir gündə məğribi gecikdirib işa ilə birlikdə qıldı və dedi: – Rəhm etməyənə rəhm olunmaz.”

3. (967) Hüseyn ibn Əli ibn Yaqtin demişdir: “Mən Cəfəri Sadiqə yolda ikən məğrib namazına yetişən kəsin nə etməli olduğu barədə sual verdim ki, həmin kəs şəfəq itənədək onu gecikdirə bilərmi? O dedi: – Səfərdə ikən belə etsə, eyb etməz. Adi vaxtda isə belə etməsin. “

Hədisin mənası budur ki, adi vaxtlarda üzr və səbəb olmadan namazları cəm etmək və ya gecikdirmək caiz deyildir.

4. (985) Əbu Ubeydə demişdir: “Mən Əbu Cəfərin belə dediyini eşitmişəm: – Rəsulullah ﷺ qaranlıq və yağışlı gecələr olduqda məğribi qılıb insanların nafilə namaz qıla biləcəkləri müddətdə oturar, sonra müəzzin iqaməni verər və o, qalxıb işa namazını qılardı. Sonra da çıxıb gedərdilər.”

Bu son hədislərə nəzər salsaq görərik ki, məğrib namazını gecikdirərək işa namazı ilə birlikdə cəm etmək, yaxud da işa namazını tezləşdirib məğriblə birlikdə qılmaq yalnız

səfər, yağış, qorxu, xəstəlik, müharibə və başqa üzrlü səbəb olduqda caizdir.

Bu fəsildə qeyd olunan hədislərin hamısı ona dəlildir ki, məğrib namazının vaxtı günəş batdıqda başlayır və qırmızı şəfəq itəndə bitir. Şəfəq itdikdə isə işa namazının vaxtı daxil olur.

Bu hədislər kitablarda öz əksini tapmış, qarşılarındakını götürüb, məscidlərdə gördüklərindən başqa bir şey bilməyən adi insanlar bunu ən doğru olan əməl hesab etmişlər.

Bu hədislər hələ də öz yerindədir, sadəcə günlər keçdikcə insanların yaddaşından qopmaqdadır. Lakin nə vaxta qədər?

Nə üçün bu hədislərin üzərindən zamanın tozunu təmizləməyək? Qoy müsəlmanlar bilsinlər ki, onların arasındakı ixtilaf süni şəkildə yaradılmışdır, onların əsasları birdir. Bu əsaslara müxalif olanlar onları parçalamaq istəyənlərdir. Bir sıra rəvayətlər vardır ki, onları islamın düşmənləri olan münafiqlər, millətçilər uydurararaq imamlara nisbət etmişlər ki, müsəlmanların zehinlərində bir çaşqınlıq yaratsınlar. Lakin sən onları Quran və Sünnənin tərəzisinə qoysan, görəcəksən ki, onlara müxalifdirlər və bu da onların batil olmasına dəlildir. Hətta həmin rəvayətlər imamlardan nəql olunmuş digər səhih rəvayətlərə və Uca Allahın Kitabına da müxalifdirlər. Bu müxaliflik də iki tərəfdəndir – Quran və Sünnə tərəfdən. İmam Sadiqin belə dediyi rəvayət olunur: "Allahın kitabına müxalif olan istənilən hədis uydurmadır." İkinci tərəf: İmamlardan nəql olunmuş rəvayətlərə müxalif olması. Biz öz dinimizi bu uydurma rəvayətlər üzərində necə qura bilərik?!

**Əhli-sünnə mənbələrində namazların cəm olunması**

Muhəmməd əl-Yasiri ən-Nəcəfi sözünə davam edərək demişdir: “Hər kəsə məlumdur ki, Uca və Nöqsansız Allah Muhəmmədin ﷺ ümmətinə isra və mübarək meracında beş namaz fərz buyurmuşdur. İlk olaraq əlli vaxt namaz fərz buyurulmuşdu. Sonradan beş vaxt namazın vaxtları müəyyənləşdirilərək buyurulmuşdur. Heç bir müsəlman bu vaxtları aşa bilməz.

Şübhəsiz ki, namazların vaxtları şəriətin əzəmətli və dəqiq əmridir. İslamın möcüzəviliyi məhz bütün insanlar, zamanlar və məkanlar üçün münasib olmasıdır. Şəriətin qanunları və ilahi qaydalarla əsla oyun oynamaq olmaz. Çünki bu İslamın möcüzəviliyinə qarşı atılmış bir addım, Allahın və şəriətin nazil etmədiyi bir şeylə hökm vermək hesab olunur.

Şəkk yoxdur ki, Allah insanın nəyə qadir olduğunu onun özündən daha yaxşı bilir. Allah heç bir vaxt insanı gücü çatmayan bir işlə yükləməz. Lakin ola bilsin ki, bəzən insan sıxıntı ilə üzləşsin və çətinliyə düşsün. Bu zaman Allah öz şəriətindəki qanunu dəyişdirir və bu vəziyyətə uyğun bir hökm verir. Belə bir qayda vardır: “Zərurətlər haramları mübah edir”. Misal üçün leş, donuz əti yemək və ya şərab içmək. Əslində bu haramdır, lakin zərurət halında bu haram mübah olur. Zərurət aradan qalxdıqda isə yenə əsil hökmə – haramlığa qayıdırıq. İzzət və Cəlal Sahibi Allahın qanunları belədir. Bu qanunları pozaraq, misal üçün zərurət olmadan şərab içən, bunu edərkən də zərurətdə bunun caiz və mübah olmasına əsaslanan kəs haram bir əməli bilərəkdən halallaşdırdığı üçün, İslam millətindən çıxaran küfrü etmiş olur.

Dinin əsası hesab olunan beş vaxt namaz da belədir. Çünki namazı tərk etmək şərab içmək, zina etmək kimi əməllərdən daha böyükdür. Belə ki, Allah namazlar üçün günəşin verdiyi kölgə ilə beş vaxt müəyyən etmiş və bizlərə həmin vaxtlara riayət etməyi əmr etmişdir. Lakin zərurət və səbəb olduqda, Allah öz elçisinin ﷺ dili ilə zöhrlə əsr namazlarını, məğriblə işa namazlarını cəm etməyi caiz etmişdir. Zərurət olmadan namazları cəm etməyə davam etmək isə İslama müxalif və haram bir əməldir.

Əhli-sünnənin mənbələrində varid olmuş hədislərin hamısı buna dəlalət edir. Yalnız bircə hədisdən başqa. İbn Abbasdan nəql olunan həmin hədis bəzilərində çaşqınlıq yaratmışdır. Onlar elə düşünüblər ki, bu hədis heç bir üzür olmadan namazların cəm olunmasına dəlalət edir. Təəssüflər olsun ki, hədisi nəql edən ravi onu təfsilatlı deyil, yığcam şəkildə qeyd etməklə bu çaşqınlığa səbəb olmuşdur. Həmin hədisi başqa ləfzləri ilə birlikdə topladıqda, şübhə aradan qalxaraq yox olur. Az sonra bu barədə söhbət açacağıq.

Allahın Elçisi ﷺ iyirmi üç il ərzində otuz mindən çox fərz namazı qılmışdır. Təkcə Mədinə şəhərində təxminən iyirmi minə yaxın namazı Allahın müəyyən etdiyi vaxtlarda qılmışdır. Yalnız səfərdə olarkən, xəstələndikdə, yaxud da buna bənzər başqa bir üzürlü səbəb olduqda o, namazlarını cəm edərdi. Belə olduğu halda şəri və əqli baxımdan Rəsulullahdan nəql olunmuş bircə hədisə əsaslanaraq bütün həyatı boyu onun etdiyi əməlin üzərindən necə xətt çəkə bilərik? Hətta

tutaq ki, həmin namazı üzürsüz cəm edibsə belə, bunu öz həyatımızda davamlı şəkildə necə tətbiq edə bilərik?!

Məgər biz həmin vaxt namazların cəm olunmasının səbəbini araşdırmalı deyilikmi?! Belə etsək, bu hədislə digər hədislər arasındakı ixtilafı aradan qaldırmağa müvəffəq olarıq. Axı söhbət dinimizdə ən əzəmətli hesab olunan bir əməldən gedir!

**İbn Abbasın hədisinə cavab**

Bu hədisə Buxari və Muslimin "Səhih" əsərlərində, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macənin "Sünən" əsərlərində, habelə İmam Əhmədin "Müsnəd" əsərində müxtəlif ləfzlərlə rast gəlmək olar. Həmin ləfzləri bir yerə topladıqda məlum olur ki, Peyğəmbər ﷺ həmin vaxt üzrlü səbəblərdən namazlarını cəm etmişdi. Həmin hadisə də yalnız bir dəfə Mədinədə baş vermişdi. Beləcə ziddiyyət aradan qalxmış olur və Peyğəmbərin ﷺ həmin əməli ilə həyatı boyu etdikləri arasında uyğunluq zahir olur. İndi isə həmin həmin hədislərin ləfzləri ilə tanış olaq:

İbn Abbas ﵄ demişdir:

1. "Rəsulullah ﷺ Mədinədə qalarkən, səfərdə olmadığı halda yeddi və səkkiz rükət qıldı". Hədisi Buxari və Əhməd[86] rəvayət etmişlər. Ləfz Əhmədindir.

---

[86] Buxarinin "Səhih" əsərinin "Namazın vaxtları" kitabı, "Zöhr namazını əsrədək gecikdirmək", 518 saylı hədis; Əhmədin "Müsnəd" əsərinin "Bəni Haşimin müsnədi"ndə Abdullah ibn Abbasdan nəql olunan hədis (1929).

2. “Rəsulullah ﷺ zöhr və əsr namazlarını, habelə məğriblə işa namazını qorxu və səfərdə olmadığı halda, cəm etmişdi”. Bu Muslimin və Malikin[87] ləfzidir.

Diqqət et, birinci hədisin ləfzi namazların cəm olunma səbəbinin səfər olması ehtimalını istisna edir.

İkinci hədisdə isə qorxu və ya səfər ehtimalını istisna edir.

Bu isə o demək deyil ki, bütün üzrlü hallar istisna olunur. Ola bilsin ki, başqa bir üzürlü səbəbdən namaz cəm olunmuşdu. Sanki İbn Abbas üzürlü səbəblərin yalnız səfər, yaxud da səfər və qorxu olduğunu iddia edənlərə cavab verir. Bu rəyi dəstəkləyən aşağıdakı hədisdir:

3. Buxari İbn Abbasdan ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Mədinədə yeddi və səkkiz rükət ardıcıl namaz qıldı. Yəni zöhrlə əsri, məğriblə də işanı cəm edib qıldı. Soruşdular: – Yəqin ki, yağmurlu bir gün idi, eləmi? İbn Abbas dedi: – Yəqin ki.”[88]

Bu, İbn Abbasın ﷺ kəlamıdır. Bu da Buxari və Əhmədin rəvayət etdikləri 1 saylı hədisdir. 2-ci hədis Muslimlə Malikin rəvayət etdikləri hədisdir. Qeyd etdiyimiz 3-cü hədis isə onları açıqlayır. Belə ki, hədisin ravisi İbn Abbas açıqlayır ki, həmin

---

[87] Muslimin “Səhih” əsərinin “Müsafirlərin namazı və onun qısaldılması” kitabı, “Səfərdə olmadıqda iki namazın cəm olunması” babı (705); Malikin “Muvatta” əsərinin “Səfərdə namazın qısaldılması” kitabı, “İki namazın səfərdə olduqda və olmadıqda cəm olunması” babı, 330-cu hədis.

[88] Buxarinin “Səhih” əsəri, “Namazın vaxtları” kitabı, “Zöhrün əsrədək gecikdirilməsi” babı, 518-ci hədis.

vaxt qorxu və səfər deyil, başqa bir üzürlü səbəb var idi ki, bu da ola bilsin yağış olsun.

### Formaca cəm etmək

Bundan əlavə İbn Abbasdan رضي الله عنهما nəql olunmuş digər rəvayətlər də vardır ki, baş verən bu hadisəni daha da açıqlayır və bəyan edir ki, bu cəm olunma halı fiqhdə *şəkli cəm* deyilən formada baş vermişdir. Bu da zöhr namazını gecikdirib vaxtının sonunda, əsri isə aşağıdakı hədisdəki kimi, vaxtının əvvəlində qılmaqdır.

– Nəsai İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Mən Mədinədə Peyğəmbərlə ﷺ birlikdə yeddi rükət bir, səkkiz rükət də bir namaz qıldım. Belə ki, o, zöhrü gecikdirdi, əsri isə tezləşdirdi, həmçinin məğribi gecikdirdi, işanı isə tezləşdirdi."[89]

Bu *şəkli cəmi* Peyğəmbər ﷺ etmişdir ki, ümmətinə çətinlik olmasın. Yəni Rəsulullah ﷺ ümmətinə bildirmək istəmişdi ki, çətinlik olduqda, səfər, yağış, yaxud da hər hansı bir başqa çətinlik həyatın inkişafı, zaman və məkanın dəyişməsi ilə olur. Belə olduğu təqdirdə namazları cəm etmək olar. Bunu da aşağıdakı hədis geniş açıqlayır:

---

[89] Nəsainin "Sünən" əsəri, "Vaxtlar" kitabı, "Səfərdə olmayanın namazları cəm etdiyi vaxt" babı, 589-cu hədis. Şeyx Albani bu hədis barəsində demişdir: – Səhihdir, yalnız "zöhrü gecikdirdi" sözündən sonrası *mudracdır*, yəni ravilərdən birinin sözüdür.

– Muslim İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Rəsulullah ﷺ zöhrlə əsri, məğriblə də işanı heç bir qorxu və ya yağış olmadığı halda, cəm etdi. İbn Abbasdan soruşdular: – Bununla o, nə etmək istəyirdi? O dedi: – İstədi ki, ümmətinə çətin olmasın."[90]

Hədisdəki "istədi ki, ümmətinə çətin olmasın" ifadəsinə diqqət et. Yəni əgər ümmətdən kimsə çətinliklə üzləşərsə, bu namazları şəklən birləşdirə bilər. Lakin burada çətinliyin növü bildirilmir. Şərt deyil ki yağış, səfər və ya qorxu olsun – zamanından və məkanından asılı olmayaraq həyatda baş verə biləcək istənilən çətinlik. Bu da İslamın əzəmətindəndir ki, orada buyurulmuş dəlillər quru deyil, istənilən hala uyğun gələn elastikliyə malikdir. Bu dəlil də müəyyən bir hala aid deyil, ümumi gəlmişdir. Ola bilsin ki, bir zamanda elə bir çətinlik olsun ki, əvvəlki dövrlərdə məlum olmasın.

Beləcə İslam dini, həyat inkişaf etdikcə ona uyğunlaşır.

Əhməd və Buxarinin nəql etdikləri 1-ci hədisi, Malik və Muslimin nəql etdikləri 2-ci hədisi Buxari və Muslimin nəql etdikləri başqa bir hədis açıqlayır:

– Amr ibn Dinar demişdir: "Ey Əbu Şəsa (Əbu Şəsa İbn Abbasdan nəql olunmuş 1-ci və 2-ci hədisin ravilərindən biridir),

---

[90] Muslimin "Səhih" əsərinin "Müsafirlərin namazı və onun qısaldılması" kitabı, "Səfərdə olmadan iki namazı cəm etmə" babı, 705 saylı hədis.

zənn edirəm ki, o, zöhrü gecikdirmiş, əsri isə tezləşdirmişdir. Həmçinin məğribi gecikdirmiş, işanı isə tezləşdirmişdir. Elə deyilmi? Əbu Şəsa dedi: – Mən də belə düşünürəm".[91]

Bu da onu göstərir ki, Rəsulullahın ﷺ etdiyi cəm şəkli bir cəm idi ki, ümməti üçün çətin olmasın.

Bu xüsusda daha da yəqin olmaqdan ötrü aşağıdakı hədislərə nəzər sal:

– Buxari, Muslim, Nəsai və başqaları Abdullah ibn Məsuddan ﵁ onun belə dediyini rəvayət etmişlər: "Mən Peyğəmbərin ﷺ namazları vaxtlarında qılmadığını görməmişəm. Yalnız iki namazdan başqa – o, məğriblə işanı birləşdirmiş, sübh namazını isə vaxtından əvvəl qılmışdı."[92]

– Nəsai "Sünən əl-kubra" əsərində Abdullah ibn Abbasın ﵄ belə dediyini rəvayət etmişdir: "Mən Mədinədə Peyğəmbərlə ﷺ birlikdə səkkiz rükət bir, yeddi rükət də bir namaz

---

[91] Buxarinin "Səhih" əsərinin "Nafilələr" kitabı, "Fərz namazından sonra nafilə qılmamaq" babı, 1120-ci hədis; Muslimin "Səhih" əsərinin "Müsafirlərin namazı və onun qısaldılması" kitabı, "Səfərdə olmadan iki namazın cəm olunması" babı, 705-ci hədis.

[92] Buxarinin "Səhih" əsərinin "Həcc" kitabı, "Sübh namazı nə zaman cəm edilir" babı, 1570-ci hədis; Muslimin "Səhih" əsərinin "Həcc" kitabı, "Qurban bayramı günü Müzdəlifədə sübh namazında qaranlığın çox olmasının müstəhəbliyi" babı, 2270-ci hədis; Nəsainin "Sünən" əsərinin "Həcc ayinləri" kitabı, "Müzdəlifədə sübh namazının qılındığı vaxt" babı, 2988-ci hədis.

qıldım. O, zöhrü gecikdirib əsri tezləşdirdi, məğribi də gecikdirib işanı tezləşdirdi."[93]

İndi isə şəkli cəm hədisini rəvayət edən İbn Abbasın dediklərini oxu:

– İbn Abbas ﵄ demişdir: "Rəsulullah ﷺ dedi: Kim üzürsüz olaraq iki namazı birləşdirərsə, böyük günahlardan birini etmiş olar".[94]

Aişə demişdir: "İzzət və Cəlal Sahibi Allah Rəsulullahın ﷺ canını alanadək o, bir namazı digərinin vaxtında qılmamışdır."[95]

Əbu Ümamənin Ömər ibn Əbdül-Əzizlə birlikdə qıldığı namazla bağlı hədisə[96] gəlincə, həmin hədisin mövzu ilə heç bir əlaqəsi yoxdur. Belə ki, həmin hədis Buxaridə "Namazların cəm olunması" babında deyil, "Əsr namazının vaxtı" babında

---

[93] Nəsainin "Sünən əl-kübra" əsərinin "Birinci namaz" kitabı, "Məğrib namazının sayı" babı, 376-cı hədis.

[94] Hakimin "əl-Mustədrək" əsərinin "İmamlıq və camaat namazı" kitabı, "Amin demək" babı, 1020-ci hədis.

[95] Əhmədin "Müsnəd" əsərinin "Ənsarların müsnədi", "Möminlərin anası Aişənin hədisi", 24658-ci hədis.

[96] Hədis belədir: "Əbu Bəkr ibn Osman ibn Səhl ibn Huneyf demişdir: Əbu Ümamə ibn Səhlin belə dediyini eşitmişəm: – Biz Ömər ibn Əbdül-Əzizlə birikdə zöhr namazını qıldıq. Sonra çıxıb Ənəs ibn Malikin yanına daxil olduq. Gördük ki, o, əsr namazını qılır. Mən dedim: – Ay əmi, hansı namazı qılırdın? Dedi: – Əsr namazını. Bu, Rəsulullahla birlikdə qıldığımız namazdır". Buxarinin "Səhih" əsərinin "Namazın vaxtları" kitabı, "Əsr namazının vaxtı" babı, 549-cu hədis.

varid olmuşdur. Odur ki, onun namazların cəm olunması ilə heç bir əlaqəsi yoxdur. Həmçinin Ömər ibn Əbdül-Əziz zöhr namazını vaxtın ortasında qılardı. Çünki o, bundan əvvəl Möminlərin əmiri olduğu üçün müsəlmanların işləri ilə məşğul olardı. Bu zaman o, qalxıb namazdan əvvəlki nafiləni qılar, sonra da zöhr namazının fərzini qılardı. O, qiraəti və zikri uzadar, ərkanları tam icra edərdi. Daha sonra o, namazdan sonrakı zikrləri edərək sonrakı nafiləni qılardı. Sonrakı nafiləni isə o, əsr namazına yaxın bir vaxtda bitirərdi. Həmin vaxtda Əbu Ümamə dostları ilə birlikdə məsciddən çıxıb əsr vaxtında Ənəs ibn Malikin yanına daxil oldular.

Bu məqamda soruşulur ki, Ömər ibn Əbdül-Əziz nə qədər müddətə namaz qılmışdı ki, Əbu Ümamə ondan sonra məsciddən çıxmışdı? Onlar namazdan sonra məsciddə nə qədər oturmuşdular? Ənəsin evinə çatanadək nə qədər vaxt keçmişdi? Məscidlə Ənəsin evi arasındakı məsafə nə qədərdir? Bütün bunlar bəlli deyil və hədisdə də bunlardan söhbət açılmır. Elə isə bunu necə dəlil gətirmək olar? Aydını qoyub aydın olmayanı necə götürə bilərik?!

Ola bilsin, kimsə soruşsun ki, nə üçün Ənəs namazı məsciddə camaatla qılmamışdı? Cavab: – Ola bilsin ki, xüsusi bir halla üzləşmişdi ki, həmin halda şəriət ona evdə namaz qılmağa icazə verirdi. Daha doğrusunu Allah bilir.

Ənəsin: “Bu, Rəsulullahla ﷺ birlikdə qıldığımız namazdır” sözünə gəlincə, bu, namazın qiraət, ruku, səcdə, xuşu kimi formasına və surətinə aiddir. Vaxtla isə əlaqəsi yoxdur.

### Vaxtlarla bağlı ittifaq edilmiş Cəbrayıl hədisi

Şiə mənbələrindən ət-Tusinin “əl-İstibsar” əsərində, əl-Kaşaninin “əl-Vafi” əsərində, əl-Məclisinin “Bihar əl-Ənvar” əsərində, əl-Qumminin “Mən lə yəhduruhul fəqih” əsərində, əl-Hurr əl-Amilinin “Vəsailuş-şiə” əsərində və ən-Nuri ət-Tabərsinin "Müstədrək əl-vəsail” əsərində, sünnə mənbələrində isə Əhməd, Tirmizi və Nəsaidən rəvayət olunduğu kimi, İmam Cəfər Sadiqin rəvayət etdiyi hədisdə, səhabə Cabir ibn Abdullah əl-Ənsari demişdir:

“Bir dəfə Cəbrayıl Peyğəmbərin ﷺ yanına gəlib dedi: – Qalx və namaz qıl. O da zöhr namazını günəş zeniti keçdikdə qıldı. Sonra əsr namazının vaxtı yetişdi və ona dedi: – Qalx və namaz qıl. O da hər şeyin kölgəsi özü boyda olduqdan sonra qalxıb əsr namazını qıldı. Sonra məğribin vaxtında onun yanına gəlib dedi: – Qalx və namaz qıl. O da gün batdıqda qalxıb namaz qıldı. Sonra işanın vaxtında onun yanına gəlib dedi: – Qalx və namaz qıl. O da şəfəq itdikdən sonra qalxıb işanı qıldı. Sonra fəcrin vaxtında gəlib dedi: – Qalx və namaz qıl. O da dan yeri söküləndə qalxıb sübh namazını qıldı. Sonra növbəti gün zöhr vaxtı Peyğəmbərin ﷺ yanına gəlib dedi: – Qalx və namaz qıl. O da hər şeyin kölgəsi özü boyda olduqda zöhr namazını qıldı. Sonra əsr namazının vaxtında onun yanına gəlib dedi: – Qalx və namaz qıl. O da hər şeyin kölgəsi iki özü boyda olduqdan sonra qalxıb əsr namazını qıldı. Sonra məğribin vaxtında onun yanına gəlib dedi: – Qalx və namaz qıl. O da

məğribi öz vaxtında qıldı. Sonra gecə düşdükdə onun yanına gəlib dedi: – Qalx və namaz qıl. O da işa namazını qıldı. Sonra da fəcr vaxtı onun yanına gəlib dedi: – Qalx və namaz qıl. O da qalxıb fəcr namazını qıldı. Sonra Cəbrayıl ona dedi: – Bu iki vaxtın arası namazların vaxtıdır”.[97]

Məzhəblər arasında ittifaq edilmiş onlarla hədis vardır ki, sonuncu hədisdə qeyd olunmuş namazların vaxtına dəlalət edir. Həmçinin “Nəhcul-bəlağə” əsərində (3-cü hissə, 83-cü səhifə) nəlq olunanlar beş vaxt namazın beş vaxtına dəlalət edir. Həmçinin İmam Əlinin beş vaxt namazı beş vaxtda qıldığına dəlalət edir.

“Nəhcul-bəlağə” əsərində o demişdir:

“Sonrasına gəlincə... Günəş keçilərin dincəldikləri yerə doğru əyildikdə zöhr namazını qılın. Günəş ağ və parlaq olduqda onlarla əsr namazını qılın. Oruclu iftarını açdıqda məğrib namazını qılın. Şəfəq itdikdən sonra gecənin üçdə birinədək işa namazını qılın. İnsan qarşısındakının üzünü tanıdıqda sübh namazını qılın.”

**Peyğəmbərdən ﷺ nəql olunmuş bəzi hədislər**

1. “Uca Allah beş vaxt namazı fərz buyurmuşdur. Kim gözəl şəkildə dəstəmaz alıb onları öz vaxtlarında qılarsa, rüku-

---

[97] Əhmədin “Müsnəd” əsəri, “Cabir ibn Abdullah əl-Ənsarinin müsnədi” (14578); “Müstədrəkul-vəsail”, 3/125; “əl-İstibsar”, 1/285; “ət-Təhzib”, 2/254; “əl-Vəsail”, 4/158.

larını xuşu ilə tamamlayarsa, Allah yanında onu bağışlaması barədə bir əhd almış olar. Kim bunları etmiş olmazsa, Allah yanında onun heç bir əhdi olmaz, istəsə onu bağışlayar, istəsə də ona əzab verər."[98]

2. "Kim beş vaxt namazları, rükularını, səcdələrini, vaxtlarını mühafizə edərsə, onların Allah tərəfindən göndərilmiş bir haqq olduğunu bilərsə, Cənnətə daxil olar."[99]

3. "Rəsulullahdan ﷺ soruşdular ki, hansı əməl daha əfzəldir? O dedi: – Vaxtında qılınan namaz. Dedilər: – Sonra hansı? Dedi: – Valideyinlərlə gözəl davranmaq. Dedilər: – Sonra hansı? Dedi: – Allah yolunda edilən cihad."[100]

**Başlanğıca dönüş**

Möhtərəm seyyid Muhəmməd əl-Yasiri imamlarla bağlı qeyd etdiyi hədislərini bu sözlərlə bitirmişdir:

"Beləliklə, namazları vaxtları xaricində qılmaq olmaz. Necə ki, İmam əs-Sadiqin belə dediyi rəvayət olunur: "Kim namazı vaxtı xaricində qılarsa, onun namazı yoxdur". Zöhrün

---

[98] Əbu Davudun "Sünən" əsəri, "Namazların vaxtını mühafizə etmək" babı, 425-ci hədis.

[99] İmam Əhmədin "Müsnəd" əsəri, "Kufəlilərin müsnədi", Hənzalə əl-Katib əl-Useydinin hədisi, 18371-ci hədis. Şeyx Şüeyb əl-Arnaut bu hədis barəsində demişdir: – Şahidləri ilə səhihdir. Bu rəvayətdə ravilərin biri qeyd olunmadığı üçün zəifdir.

[100] Buxarinin "Səhih" əsərinin "Cümə günü" kitabı, "Dəfn olunanadək gözləyən kəs" babı, 2782-ci hədis.

vaxtı əsrin vaxtından fərqlidir, işanın da vaxtı məğribin vaxtından fərqlənir. Kim heç bir üzürlü səbəb olmadan namazlarını cəm edərsə, yəni misal üçün, əsri zöhrün vaxtında və ya əksinə qılarsa, o, az öncə qeyd etdiyimiz hədisdəki namazının batil olduğu deyilən kəslərdəndir. Beləsi İmam əs-Sadiqin bu sözlərini xatırlamalıdır: "Heç kim üzürsüz olaraq namazın vaxtının sonunu vaxta çevirə bilməz."

Sonda "Həmd aləmlərin Rəbbi olan Allah məxsusdur" deyirik.

**Mənbələr**

1. ət-Tusinin "əl-İstibsar" əsəri, Həsən əl-Musəvinin təhqiqi. "əl-Xorasan əl-Kutub əl-isləmiyyə" nəşriyyatı, Tehran, dördüncü nəşr.

2. əl-Məclisinin "Bihar əl-Ənvar" əsəri, "əl-Vafə" müəssisəsi, Beyrut (Livan), ikinci düzəldilmiş nəşr, 1403 (1983)-cü il.

3. ət-Tusinin "ət-Təhzib" əsəri, Həsən əl-Musəvinin təhqiqi, "əl-Xorasan əl-kutub əl-isləmiyyə" nəşriyyatı, Tehran, ikinci nəşr.

4. əl-Qumminin "Mən lə yəhduruhul fəqih" əsəri, Əli Əkbər əl-Ğifarinin düzəlişləri ilə, müəllimlərin hazırladığı "ən-Nəşr əl-isləmi" müsəssisəsi, Qum, İran.

5. əl-Kuleyninin "əl-Kafi" əsəri, Əli Əkbər əl-Ğifarinin düzəlişləri ilə, "əl-Kutub əl-isləmiyyə" nəşriyyatı, Tehran, üçüncü nəşr.

6. əş-Şərif ər-Radinin "Nəhcul-bəlağə" əsəri, Muhəmməd Abdunun şərhi, "əz-Zəxair" nəşriyyatı, Qum, İran. Birinci nəşr.